## “Nobel" üçün Azərbaycandan 2-3 rəsmi müraciət olub



**Nobel mükafatlarının təsis edilməsindən keçən 122 il ərzində Azərbaycandan həmin mükafatı almaq üçün hələlik 2-3 rəsmi müraciətin olması məlumdur.**

Bu barədə AMEA-nın təşkilatçılığı ilə cari ilin oktyabr ayında keçiriləcək "Nobel mükafatına aparan yolun dərsləri: mif, çətinliklər, uğurlar və çağırışlar" mövzusunda elmi konfransın Təşkilat Komitəsinin ilk iclasında bildirilib.

Nazirlər Kabinetinin 3 iyun 1996-cı il tarixli qərarı ilə "AMEA nəzdində Nobel İnformasiya Mərkəzi"nin yaradıldığını diqqətə çatdırlıb.

(səh.3)

## “Kalaşnikov"la telefon mağazasına basqın edildi



**İranın Zahidan şəhərinin Beheşti küşəsində "Kalaşnikov" avtomatı ilə silahlanan 3 nəfər mobil telefon mağazasına daxil olaraq insanlara atəş açıblar.**

Bu barədə "Azad İran" Teleqram kanalı məlumat yayıb.

Hadisə mağazanın müşahidə kameraları vasitəsilə qeydə alınıb.

*Qeyd edək ki, silahlı qarətçilərin saxlanılması istiqamətində axtarış-əməliyyat tədbirləri həyata keçirilir.*


❐ № 129 (5890) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 iyul 2023-cü il (çərşənbə)




# DSX-dən xəbərdarlıq

### Ermənistan “Laçın” buraxılış məntəqəsində növbəti təxribat əməli planlaşdırılır

**Əldə edilmiş məlumata əsasən, "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində iyulun 26-da Ermənistan tərəfindən müxtəlif nəqliyyat vasitələrinin toplanmasını təşkil etməklə nümayişkaranə şəkildə növbəti təxribat əməli planlaşdırılır.**

Bu barədə "Şərq"ə Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

"Ermənistan tərəfini bu kimi təxribat məqsədi daşıyan və vəziyyətin gərginləşməsinə xidmət edən əməllərdən çəkinməyə çağırırıq. Bir daha bildiririk ki, mümkün təxribat əməllərinə görə bütün məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşəcəkdir", - deyə məlumatda bildirilib.



## Ombudsmanın səlahiyyətləri artırıldı

### Milli Məclis 15 gün müddətində müvəkkilin seçilməsi ilə bağlı qərar qəbul edəcək

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsman) səlahiyyətləri artırılıb.**

Bununla bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanununu təsdiqləyib.

(səh.2)

# Sülh danışıqlarında müsbət məqamlar var

### Bəzi məsələlərdə tərəflərin qarşılıqlı razılığa gələ biləcəyi perspektivləri görünür



**Dünən Moskvada Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov, Sergey Lavrov və Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib.**

Görüşdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi müzakirə olunub. Qeyd edək ki, üçtərəfli danışıqlardan əvvəl C.Bayramovla S.Lavrov bir araya gəlib. Tərəflər Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşma prosesi ilə yanaşı, Moskva və Bakı arasındakı münasibətlər və regional məsələləri müzakirə ediblər.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, Rusiya Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında maraqlıdır...

(səh.3)

## Azərbaycan XİN BQXK-yə cavab verib

### “Humanitar mandatdan siyasi məqsədlər üçün sui-istifadə edilməməlidir”



**“Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) humanitar mandatına riayət olunması və ondan siyasi məqsədlər üçün sui-istifadə edilməməsi vacibdir”.**

“Şərq” xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Qızıl Xaç Komitəsinin bölgədə humanitar vəziyyət ilə bağlı iyulun 25-də səsləndirdiyi bəyanatına dair şərhində əksini tapıb.

Qeyd olunub ki, XİN BQXK-nin bölgədə humanitar vəziyyət və təşkilatın fəaliyyəti ilə bağlı 25 iyul tarixində verdiyi bəyanatı qeydə alıb.

(səh.2)







# "Danışan əllər" yardım əli gözləyir

### “Təxminən 2 ilə yaxındır ki, danışıqlar aparırıq, “baxarıq” deyirlər, biz də gözləyirik”

**Gənc heykəltəraşlar, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yetirmələri Namiq Hüseynov və Kənan Əliyev "Danışan əllər" ilə mesajlar ötürür.**

Onların layihəsinin yaranma səbəbi 44 günlük Vətən müharibəsində birliyimizin və gücümüzün simvoluna çevrilən "Dəmir yumruq" oldu. Bütün Azərbaycan xalqı bir yumruq ətrafında birləşdi. Kənan Əliyev və Namiq Hüseynov da müasir tariximizin bu şanlı səhifəsini sənətin dilində fərqli formada təqdim etməyə çalışdılar.

(səh.4)



## Nəhayət, Nazirlər Kabineti müzakirələrə son qoydu

### Bundan sonra avtomobillərin parklanmasından əldə olunan gəlirlər ayrı-ayrı şəxslərin cibinə deyil, dövlət büdcəsinə gedəcək

**Nazirlər Kabinetinin 25 iyun 2023-cü il tarixli qərarı ilə təsdiqlənən "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği" qüvvəyə minir.**

Qərara əsasən, ödənişli parklanma yerlərində nəqliyyat vasitələrinin 15 dəqiqəyədək parklanması üçün ödəniş tələb olunmayacaq.

(səh.7)

## Ermənistan qarşıdurma şəraitində yaşasa, dövlətçiliyini itirəcək

### Paşinyan: “Mənim dövlət başçısı kimi bu məsələni diqqət mərkəzində saxlamamağa haqqım yoxdur”



**Ermənistanın uzun müddət qarşıdurma şəraitində yaşaması dövlətçiliyin itirilməsinə gətirib çıxaracaq. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan mətbuat konfransında deyib.**

"Ermənistan uzun müddət qarşıdurma şəraitində yaşaya bilməz. Biz elektrik enerjisi, çörək və nəqliyyatın olmadığı illərə qayıtmayacağıq. Biz dövlətimizin olmadığı dövrə qayıdacağıq. Mənim dövlət başçısı kimi bu məsələni diqqət mərkəzində saxlamamağa haqqım yoxdur", - deyə o vurğulayıb.

Paşinyan qeyd edib ki, Ermənistan bütün mövcudluğu boyu qarşıdurma məntiqi ilə hərəkət edib. Bu, hər mənada - təhlükəsizlik, inkişaf və beynəlxalq nüfuz mənasında böyük problem olub. Ermənistanın baş naziri bildirib ki, qarşıdurma məntiqi ölkənin uzunmüddətli inkişafını və təhlükəsizliyini təmin edə bilməyib və bilməyəcək.

## Qubad İbadoğlu köçürülüb

### Bundan sonra o Bakı İstintaq Təcridxanasında saxlanılacaq



**Ötən gün həbs edilən Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlu Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb.**

"Report"un əldə etdiyi məlumata görə, o, bundan sonra Bakı İstintaq Təcridxanasında saxlanılacaq.

(səh.2)



## "Paşinyan yerli əhalini sülh sazişinə hazırlayır"

### Elmar Məmmədyarov: “Onun bəyanatı düzgündür, çünki Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaq istəmir”

(səh.3)



## Azərbaycan mediasında FETÖ-nün qalıqları istisna olunmur

### Müvafiq dövlət qurumları səslənən iddiaları araşdırmalı və lazımi tədbirlər görməlidir

(səh.5)

# Ermənistan hökuməti də Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalıdır

## İcma: "Bizim qayıdış hüququmuzu və qayıtdıqdan sonra hüquq və təhlükəsizliyimizi təmin etməlidir"



**Nikol Paşinyanın Ermənistanın etnik təmizləməsinə haqq qazandırması qəbuledilməzdir.**

**Bu barədə Qərbi Azərbaycan İcması Ermənistanın baş nazirinin səsləndirdiyi iddialara dair verdiyi bəyanatda bildirilir.**

Bununla bağlı verilən açıqlamada deyilir: "Ermənistanın baş naziri Nikol Paşinyan bugünkü mətbuat konfransında Brüssel sülh prosesi çərçivəsində, Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtması məsələsinə baxılması haqqında danışdı. O, insan hüquqları məsələsində etnik əsasda ayrı-seçkilik və dolayısı ilə Azərbaycanın ərazi bütövlüyünə qəsd edən yanaşma nümayiş etdirdi. Baş nazir Paşinyan Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin hüquqları məsələsi ilə müqayisə edilə bilməyəcəyini iddia etdi".

İlk növbədə, qeyd edək ki, Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnu təmin etmək Ermənistan hökumətinin borcudur. Ermənistan hökumətinin bu ölkənin ərazisindən azərbaycanlıların hamısını qovduğu halda, Azərbaycanda yaşamaqda olan ermənilərin hüquqlarından dəm vurması ən böyük riyakarlıq və naşılıqla ört-basdır etmiş olduğu etnik təmizləmə kimi insanlıq əleyhinə cinayətin nəticələrinə mötəbər bir arqument kimi istinad etməsi onun insan hüquqları və demokratiya məsələsində qeyri-səmimi olduğunu və monoetnik siyasəti davam etdirdiyini sübut edir.

Qərbi Azərbaycan İcması baş nazir Paşinyanın bu yanaşmasını sərt şəkildə qınayır və ondan mütləq dəyər olan insan hüquqlarına qeyd-şərtsiz hörmət etməyi və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına imkan yaratmağı tələb edir".

edilmiş ərazi iddiasıdır.

Azərbaycanın özünün Qarabağ bölgəsində yaşayan ermənilərlə təmaslara və onların hüquqlarını qorumağa hazır olduğu kimi, Ermənistan hökuməti də Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalı, bizim qayıdış hüququmuzu və qayıtdıqdan sonra hüquq və təhlükəsizliyimizi təmin etməlidir.

Baş nazir Paşinyanın insan haqları məsələsində Ermənistandan qovulmuş azərbaycanlıları Azərbaycan ərazisində yaşamaqda olan ermənilərdən fərqləndirməsi hüquqazidd və təhlükəli yanaşmadır. Hamıya məlumdur ki, burada yeganə fərq azərbaycanlıların öz evlərində yaşamaqdan məhrum olmasıdır ki, bu da Ermənistana heç bir başucalığı gətirmir. Ermənistanın baş nazirinin ölkəsinin tö-

# Ombudsmanın səlahiyyətləri artırıldı

## Milli Məclis 15 gün müddətində müvəkkilin seçilməsi ilə bağlı qərar qəbul edəcək



**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsman) səlahiyyətləri artırılıb.**

**Bununla bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanununu təsdiqləyib.**

Sənədə əsasən, müvəkkil "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirə biləcək.

Həmçinin, müvəkkil insan hüquqları sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin təhlilini apara, rəy və təkliflərini müvafiq sahədə monitorinq və qiymətləndirməni həyata keçirən quruma təqdim edə bilər.

Qanuna əsasən, müvəkkilin səlahiyyətlərinin bitməsinə 30 gün qalmış Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisinə yeni Müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi 15 gün müddətində Müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edəcək.

Eyni zamanda, müvəkkil şikayətə baxılması ilə bağlı görülmüş tədbirlər və nəticələr barədə 10 iş günü müddətində ərizəçiyə yazılı surətdə məlumat verməlidir. Əvvəlki qanunda bu, 5 iş günü idi.

Bundan başqa, müvəkkil informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətə baxarkən informasiya sahiblərindən zəruri məlumatları (sənədləri, materialları) və ya onların surətlərini tələb edə bilər. Həmin məlumatlar (sənədlər, materiallar) 5 iş günü müddətində Müvəkkilə təqdim edilməlidir.

# Konstitusiya Məhkəməsinin hakimlərinə aid yaş senzi ləğv olunub




**Konstitusiya Məhkəməsinin hakimlərinə aid yaş senzi ilə bağlı məhdudiyyət ləğv olunub.**

Bu, Prezident İlham Əliyevin dünən təsdiqlədiyi "Konstitusiya Məhkəməsi haqqında" qanuna edilən dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, yaş senzi ləğv olunur. Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə uyğun olaraq seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola biləcək. İndiyə qədər Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola bilərdi.

# Ərdoğan Mahmud Abbasla görüşdü



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada rəsmi səfərdə olan Fələstin prezidenti Mahmud Abbasla görüşüb.**

Bu barədə Türkiyə mediası məlumat yayıb.

Görüşdə Türkiyə hökumətinin bir sıra üzvləri iştirak edib.

Ərdoğan və Abbas görüşdən sonra birgə mətbuat konfransı keçirəcək.

# Qubad İbadoğlu köçürülüb

## Bundan sonra o Bakı İstintaq Təcridxanasında saxlanılacaq



**Ötən gün həbs edilən Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlu Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb.**

"Report"un əldə etdiyi məlumata görə, o, bundan sonra Bakı İstintaq Təcridxanasında saxlanılacaq.

Qeyd edək ki, Nərimanov Rayon Məhkəməsinin hakimi Vüsal Qurbanovun sədrliyi ilə keçirilən prosesdə Q.İbadoğlu barəsində 3 ay 26 günlük həbs qətimkan tədbiri seçilib.

O, Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə təqsirləndirilir.

*Xatırladaq ki, Daxili İşlər Nazirliyinin məlumatına görə, Türkiyə Daxili İşlər Nazirliyindən daxil olan informasiya əsasında Azərbaycanda FETÖ ilə əlaqəli olan şəxslərə qarşı əməliyyat tədbirləri keçirilib. Tədbirlərlə saxlanılan 5 nəfərdən biri Q.İbadoğlu ilə əlaqəsinin olması barədə ifadə verib. Həmin ifadə əsasında Q.İbadoğlunun ofisində axtarış aparılıb, iş üzrə zəruri əhəmiyyət kəsb edən sənədlər aşkarlanmış və Q.İbadoğlu saxlanılıb.*

# Şoyqunun Şimali Koreyaya səfəri təsadüfi deyil

## Rusiya fərqindədir ki, Braziliya, Hindistan və Çindən açıq şəkildə dəstək almaq mümkün olmayacaq



**"Hazırda dünyada qlobal dəyişmə prosesi gedir və bu, sadəcə demokratik, iqtisadi yeniliklərlə bağlı deyil".**

**Bunu "Şərq"ə açıqlamasında hərbi-siyasi ekspert Həşim Səhrablı Şoyqunun Şimali Koreya səfərindən danışarkən deyib.**

**O bildirib ki, biz günümüzdə hərbi, siyasi və hətta sərhəd dəyişikliklərinin də şahidi oluruq:** "Ümumiyyətlə desək, təkqütblü dünyadan çoxqütblüyə keçid prosesi başlayıb. Bu, aktual məsələlərdən biridir. Elə Rusiya tərəfi də müxtəlif rəsmilərin dilində bunu qabardıb. İndi xüsusilə Rusiyanın Ukraynadakı müharibəsi fonunda planlarının uğursuzluqla nəticələnməsi və savaşın uzanmasından yola çıxaraq deyə bilərik ki, Şoyqu Şimali Koreyaya heç də təsadüfi səfər etmir. Belə bir vəziyyətdə onun Şimali Koreyaya səfəri sadəcə bir məqsədə hesablanmış ola bilər. Biz bilirik ki, Qərb dövlətləri hər nə qədər zəifləsə də, yaxud Hindistan və Braziliya nə qədər güclənsə də, hazırda dünyada söz sahibi qüvvələr Qərbdir".

**Ekspertin sözlərinə görə, Rusiya fərqindədir ki, Braziliya, Hindistan və Çindən açıq şəkildə dəstək almak mümkün olmayacaq**: "Amma Şimali Koreya təkqütblü dünya formalaşan dövrdən diktatura rejimini qoruyub saxlayan və Qərbə qarşı adekvat cavab verməyi bacaran ölkə kimi tanınıb. İndi Kremlə özünün hərbi ehtiyaclarının qarşılanmasında və daha ciddi dəstək ola biləcək ölkələr siyahısında məhz Şimali Koreya var. Şoyqunun səfərində də bu məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Eyni zamanda biz bilirik ki, ABŞ Yaponiya və Cənubi Koreya ilə olan ittifaq əlaqələrindən dolayı, Çin və Rusiyaya qarşı Sakit okean sahillərində də addımlar atır. Bunu hərbi təlimlər fonunda da görürük".

*Qeyd edək ki, Rusiya müdafiə naziri Sergey Şoyqunun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 25-27-də Şimali Koreyada səfərdə olacaq.*

*Bu barədə məlumatı Rusiya Müdafiə Nazirliyinə istinadən yayıb.*

*Qeyd olunur ki, rusiyalı nümayəndə heyəti Koreya müharibəsinin (1950-1953-cü illərdə Koreyanın Şimalı və Cənubu arasında gedən vətəndaş müharibəsi) 70-ci ildönümünün qeyd edildiyi mərasimdə iştirak edəcək.*

*Həmçinin Rusiya müdafiə naziri ilə Koreya Xalq Demokratik Respublikası lideri Kim Çen İn arasında görüşün baş tutacağı bildirilir.*

**Nihat Müzəffər**

# Van İ yenidən Çinin xarici işlər naziri təyin olunub



**Çinin ali qanunverici orqanı olan Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin üzvləri Çin Qanın ölkənin xarici işlər naziri vəzifəsindən azad edilməsinə səs veriblər.**

2013-2022-ci illərdə Çinin xarici siyasət idarəsinə rəhbərlik etmiş Van İ yenidən xarici işlər naziri təyin edilib. Son günlər xarici mətbuatda sabiq nazir Çin Qanın televiziya aparıcısı olan honkonqlu qadın ilə yaxın münasibətləri barədə məlumatlar yayılmışdı. Bir aya yaxın idi ki, Çin Qanın rəsmi görüşlərdə iştirakı və vəzifəsini icra etməsi barədə məlumat yox idi.

Daimi Komitənin üzvləri İ Qanın Çinin mərkəzi bankının rəhbəri vəzifəsindən azad edilməsi, yerinə Pan Qonşenin təyin olunmasına da səs veriblər. Çin Xalq Respublikasının Sədri Si Cinpin həmin qərarları təsdiqləyən sərəncamlar imzalayıb.

# Azərbaycan XİN BQXK-yə cavab verib

## "Humanitar mandatdan siyasi məqsədlər üçün sui-istifadə edilməməlidir"




**"Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) humanitar mandatına riayət olunması və ondan siyasi məqsədlər üçün sui-istifadə edilməməsi vacibdir".**

**"Şərq" xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Qızıl Xaç Komitəsinin bölgədə humanitar vəziyyət ilə bağlı iyulun 25-də səsləndirdiyi bəyanatına dair şərhində əksini tapıb.**

Qeyd olunub ki, XİN BQXK-nin bölgədə humanitar vəziyyət və təşkilatın fəaliyyəti ilə bağlı 25 iyul tarixində verdiyi bəyanatı qeydə alıb.

"Məlum olduğu kimi, cari ilin 15 iyun tarixində Laçın sərhəd buraxılış məntəqəsinin atəşə tutulması, iyul ayında erməni əsilli sürücülərin Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək səyləri Ermənistan tərəfinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı növbəti qeyri-qanuni fəaliyyət, eləcə də sərhəd keçid məntəqəsinin fəaliyyətinə maneçilik kimi qiymətləndirilərək, bu kimi pozucu tədbirlərə son qoyulması tərəfimizdən tələb olunub.

Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət cəhdlərinin qarşısını almaqla yanaşı, Azərbaycan tərəfi BQXK ilə vacib əməkdaşlığı davam etdirib. Azərbaycan tərəfinin BQXK ilə apardığı müzakirələrdən sonra, zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinin davam etməsinə şərait yaradılıb və gün ərzində onlarla erməni sakin hər iki istiqamətdə sərhəd məntəqəsindən keçib.

Daha böyük miqdarda dərman preparatları və yüklərin daşınması və tədarükü üçün Azərbaycan tərəfindən "Ağdam-Xankəndi" yolundan istifadə etməklə yardım təklif edilib. Lakin buna baxmayaraq, təəssüflər olsun ki, erməni tərəfi təkidlə bu yoldan imtina edir.

Bununla yanaşı, erməni sakinlərin tibbi məqsədlər üçün Laçın sərhəd buraxılış məntəqəsindən BQXK vasitəsilə keçidinin daha da asanlaşdırılması məqsədilə BQXK-nin həkiminin əraziyə getməsi ilə bağlı razılıq əldə olunmasına baxmayaraq, yerində bundan imtina olunması da təəssüf doğurur.

Erməni tərəfinin Azərbaycan tərəfindən atılan addımlara və dəstək niyyətinə, o cümlədən BQXK tərəfindən sözügedən bəyanatda da qeyd edildiyi kimi, "Ağdam-Xankəndi" və digər alternativ yollardan istifadə edilməsi təkliflərinə qarşı çıxması bölgədə "gərgin humanitar vəziyyət" iddialarının siyasi manipulyasiya və təzyiq vasitəsi olduğunu bir daha sübut edir", - XİN-in şərhində bildirilib.

# Zakir Həsənov Türkiyənin texnologiya naziri ilə görüşüb

## Azərbaycanla Türkiyə arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub



**İyulun 25-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti İstanbul şəhərində keçirilən "IDEF - 23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisinin açılış mərasimində iştirak edib.**

MN-dən verilən xəbərə görə, Nazirliyin rəhbər heyəti sərgidə "ASELSAN", "ROKETSAN", "DEARSAN" və digər şirkətlərin stendlərində nümayiş etdirilən silah, texnika və hərbi təyinatlı vasitələrlə tanış olub.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov, həmçinin Türkiyənin texnologiya naziri Mehmet Fatih Kacır ilə görüşüb.

Görüşdə hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb və qarşılıqlı hədiyyələr təqdim edilib.

# Sülh danışıqlarında müsbət məqamlar var

## Bəzi məsələlərdə tərəflərin qarşılıqlı razılığa gələ biləcəyi perspektivləri görünür




**Dünən Moskvada Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov, Sergey Lavrov və Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib. Görüşdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi müzakirə olunub.**

Qeyd edək ki, üçtərəfli danışıqlardan əvvəl C.Bayramovla S.Lavrov bir araya gəlib. Tərəflər Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşma prosesi ilə yanaşı, Moskva və Bakı arasındakı münasibətlər və regional məsələləri müzakirə ediblər.

**"Rusiya Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında maraqlıdır"**

Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, Rusiya Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında maraqlıdır: "Bizim səylərimiz Ermənistan-Azərbaycan sərhədində vəziyyətin sabitləşməsinə, humanitar problemlərin həllinə, iqtisadi nəqliyyat əlaqələrinin açılmasına, vətəndaş cəmiyyətləri, ekspertlər, politoloqlar və parlamentarilər vasitəsilə insanlar arasında əlaqələrin inkişafına yönəlib". Baş diplomat həmçinin qeyd edib ki, Moskva sülh müqaviləsi üzrə razılığa gəlməyə kömək etməyə hazırdır.

**"Bakı ilə İrəvan arasında sülh sazişinin əldə olunmasına hər cür kömək etməyə hazırıq"**

Lavrov qeyd edib ki, Moskva Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasına hər cür kömək etməyə hazırdır: "Biz bugünkü görüşdən regionumuzun ən mühüm məsələlərindən birinin - mən Cənubi Qafqazda uzunmüddətli sabitləşməni nəzərdə tuturam - həlli üçün istifadə etmək istəyirik. Əminik ki, buna ən qısa yol Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatların bütün müddəalarının həyata keçirilməsidir. Bir sıra əlavə sənədlər liderlərimiz tərəfindən nəzərdən keçirilmək üçün hazırlanır".

**"Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinin dinamikası kifayət qədər yüksəkdir"**

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib ki, Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinin dinamikası kifayət qədər yüksəkdir. O qeyd edib ki, xarici işlər nazirləri sonuncu dəfə təxminən iki ay əvvəl görüşüblər və o vaxtdan indiyədək müxtəlif səviyyələrdə çoxlu sayda görüşlər, təmaslar olub: "Danışıqlar prosesinin dinamikası kifayət qədər yüksək olsa da, nəticələr dinamikadan bir qədər aşağıdır. Amma ümumiyyətlə, müsbət nəticənin olmadığını demək düzgün deyil".

**"Azərbaycanla danışıqlar fəal gedir, amma həll olunmamış məsələlər çoxdur"**

Ermənistan xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, İrəvanla Bakı arasında danışıqlar fəal gedir, lakin hələ də bir çox həll olunmamış məsələlər qalır: "Gündəlikdəki bütün məsələlər üzrə görüşlərimiz, danışıqlarımız kifayət qədər intensivdir, bəzi məsələlərdə konkret nəticələr var, bəzi məsələlərdə tərəflərin qarşılıqlı razılığa gələ biləcəyi perspektivləri görünür. Ancaq əlbəttə ki, tərəflərin mövqelərinin hələ də bir-birindən uzaq olduğu problemli məsələlər qalır. Danışıqları bütün platformalarda bütün istiqamətlərdə aparırıq".

**İsmayıl**

# Qərar verərkən iki dəfə düşünmək lazımdır

## İranın İRNA Agentliyi Bakıda ofisinin fəaliyyətini bərpa edəcək

**İranın İRNA Xəbər Agentliyinin Bakıda ofisinin fəaliyyəti bərpa ediləcək. Bu barədə İRNA-nın baş direktoru Əli Nadiri bildirib. Onun sözlərinə görə, agentlik Azərbaycan dilində sayt yaratmağı və Bakıda ofis açmağı planlaşdırır. Ə.Nadiri Azərbaycana 4 günlük səfəri çərçivəsində AZƏRTAC xəbər agentliyinin ofisində olub, agentliyin rəhbərliyi ilə görüşüb:**

"Ən mühüm qonşularımızdan biri isə Azərbaycan Respublikasıdır və Azərbaycanla münasibətlərin inkişaf etdirilməsi İranda hazırkı hökumət formalaşandan bəri ciddi şəkildə davam etdirilir". Nadiri əlavə edib ki, yaxın günlərdə Bakıdakı büroya müxbir ezam olunacaq. Görüşdə İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvinin də iştirak etməsi xüsusilə diqqət çəkib. Bəzi ekspertlərə görə, səfirin görüşdə iştirak etməsi ondan xəbər verir ki, İRNA-nın Azərbaycan bölməsinin fəaliyyətə başlaması öncədən rəsmilər səviyyəsində razılaşdırılıb. Əli Nadirinin Azərbaycan səfərinin əsas məqsədi də məhz bu məsələ ilə bağlıdır.

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, hər iki dövlət münasibətləri yenidən normallaşdırmaq istəyini ortaya qoyub. Ekspertin sözlərinə görə, ancaq bunun üçün ilk növbədə İranın addım atmasına ehtiyac var:** "Tehranda Azərbaycan səfirliyinə qarşı törədilmiş terror hadisəsi konkret hüquqi nəticəyə bağlanmayıb. Özlərinin "şizofren" adlandırdıqları bir şəxsin məhkəmədə mühakimə olunması Azərbaycana heç nə vermir. Çünki həmin terrorçunu yönləndirən, arxasında duran dövlət strukturları və dairələr var. Məhz bu məsələ həllini tapmadan iki ölkənin münasibətlərinin normallaşma səviyyəsinə keçməsi mümkün deyil. Digər yandan İRNA-nın fəaliyyətinə diqqət yetirmək lazımdır. İRNA hər zaman anti-Azərbaycan fəaliyyəti ilə seçilmiş media qurumudur. Sadəcə media qurumu deyil, həm də ciddi casus şəbəkəsidir. Belə bir şəbəkəni yenidən Azərbaycanın informasiya məkanına buraxmaq təhlükəsizliyimiz baxımından risklidir. Bu, sıradan məsələ deyil və qərar verməzdən öncə Tehranın niyyətini görməliyik. Amma hələlik belə bir niyyəti görmürük. İranın anti-Azərbaycan ritorikası, rəsmi Bakıya qarşı açıqlamaları, Ermənistanın maraqlarının güdülməsi hələ davam etməkdədir. Bir tərəfdən Azərbaycanla normal münasibət qurmaq istədiklərini deyirlər, digər yandan siyasi çevrələrdə Azərbaycanı təhdid edən açıqlamalar yayılır. Bu da bilavasitə İRNA kimi agentliklər əliylə həyata keçirilir. Qərar verərkən iki dəfə düşünmək lazımdır. Bir daha qeyd edirəm, İranın bütün informasiya agentlikləri birbaşa casus şəbəkəsidir və SEPAH-a bağlıdır. Ölkədə İranın casus şəbəkəsinin işfa edilməsi prosesi gedərkən, bir yandan da yenidən casus şəbəkəsi yaradırıq?!".



"Bir daha qeyd edirəm, İranın bütün informasiya agentlikləri birbaşa casus şəbəkəsidir və SEPAH-a bağlıdır"

**İsmayıl Qocayev**

# "Nobel" üçün Azərbaycandan 2-3 rəsmi müraciət olub

**Nobel mükafatlarının təsis edilməsindən keçən 122 il ərzində Azərbaycandan həmin mükafatı almaq üçün hələlik 2-3 rəsmi müraciətin olması məlumdur.**

Bu barədə AMEA-nın təşkilatçılığı ilə cari ilin oktyabr ayında keçiriləcək "Nobel mükafatına aparan yolun dərsləri: mif, çətinliklər, uğurlar və çağırışlar" mövzusunda elmi konfransın Təşkilat Komitəsinin ilk iclasında bildirilib.




Nazirlər Kabinetinin 3 iyun 1996-cı il tarixli qərarı ilə "AMEA nəzdində Nobel İnformasiya Mərkəzi"nin yaradıldığını diqqətə çatdırlıb. Akademik İsa Həbibbəyli Nazirlər Kabinetinin sözügedən qərarının arxivdən tapılaraq ondan irəli gələn məsələlərin araşdırılması ilə bağlı müvafiq tapşırıqlarını verib.

Ötən 122 ildə Azərbaycandan bu mükafata məşhur fizik Lev Landaunun layiq görüldüyünü, həmçinin Cənubi Azərbaycandan Şirin Ebadinin Nobel mükafatı aldığını, həmçinin Nobel Sülh Mükafatına layiq görülən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyində (MAQATE) çalışanların siyahısında da Azərbaycan vətəndaşı Bəxtiyar Siracovun da adının olduğunu qeyd edilib. Həmçinin dünya şöhrətli görkəmli elm xadimi, akademik Yusif Məmmədəliyevin və məşhur cərrah akademik Mustafa bəy Topçubaşovun da Nobel mükafatına namizədlər kimi təqdim edilməsinə dair məlumatların olduğu vurğulanıb.

# "Paşinyan yerli əhalini sülh sazişinə hazırlayır"

## Elmar Məmmədyarov: "Onun bəyanatı düzgündür, çünki Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaq istəmir"





**"Ermənistan Azərbaycanın Qarabağ bölgəsinin əhalisinin taleyini həll edə bilməz". Bu barədə Ermənistanın Baş naziri Nikol Paşinyan dünən mətbuat konfransında bildirib.**

"Bizim fikrimiz belədir: Ermənistan Respublikası Qarabağ əhalisinin taleyini həll edə bilməz", - N.Paşinyan vurğulayıb.

*Paşinyanın açıqlamasını "Şərq"ə şərh edən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, biz bəyanatı təhlil edərkən Paşinyanın bunu daxili auditoriya üçün hazırladığına baxmalıyıq:* "Yəni o, yerli əhalini sülh sazişinə hazırlayır. Digər tərəfdən, bu bəyanat düzgündür. Çünki Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaq istəmir. Paşinyanın sözlərinə görə, Xankəndi ilə Bakı arasında birbaşa danışıq olmalıdır. Lakin onlar təklif edir ki, beynəlxalq ictimaiyyət də bu görüşlərdə iştirak etsin. Bunu isə Azərbaycan tərəfinin qəbul edəcəyinə inanmıram. Ona görə ki, bu, Azərbaycanın torpaqlarıdır və orada yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Ümumiyyətlə, məsələni tam dəqiqliyi ilə Moskvadakı danışıqlardan sonra şərh etmək mümkün olacaq".

**Nihat Müzəffər**

# Moskva sülh istəmir, heç Vaşinqton da...

## Fazil Mustafa: "Çünki belə bir niyyət olsaydı, Ermənistana kiçik bir təzyiq kifayətdir ki, hər iki cinahdan İrəvan sülh danışıqlarına gəlsin"



**"Azərbaycan və Ermənistan arasında aparılan danışıqlarda sülhə nəyin töhfə verib-verməyəcəyini söyləmək çətin məsələdir".**

*Bu barədə "Şərq"ə açıqlamasında millət vəkili Fazil Mustafa deyib. Deputat bildirib ki, görüşlərin gedişindən Moskvanın niyyətinin problemin həlli istiqamətində addım atmaq olduğunu çıxartmaq çətindir. Parlament üzvünün sözlərinə görə, heç Vaşinqtondan da bu niyyətlərin olduğu tam mənada aydınlaşmır:* "Çünki belə bir niyyət olsaydı, Ermənistana kiçik bir təzyiq kifayətdir ki, hər iki cinahdan İrəvan sülh danışıqlarına gəlsin. Moskva görüşü Vaşinqton görüşündən sonranı izləyən bir prosesdir. Həm də buna beynəlxalq güclərin rəqabəti kimi baxılmalıdır, nəinki bizim maraqlarımızın təmin olunması üçün faydalı bir imkan kimi. ABŞ və Rusiyanın beynəlxalq səviyyədə müəyyən problemlərə münasibətdə fərqlilik nümayiş etdirmə və problemin həllinə kimin daha çox yaxın olduğunu isbatlamaq məqsədi güdən bir istiqamət qabarır. Ona görə də bu məsələdə umacağımız bir nəticə olmamalıdır. Nəticələrdən daha çox gedişatda hansısa xırda məsələlər üzərində mövqeyimizin möhkəmlənməsinə çalışmalıyıq. Çünki burada mövqe savaşı, taktiki savaş gedir. Strateji savaş ABŞ, Rusiya və Avropa Birliyi arasında aparılır. Taktiki savaşda xırda itkilərə yol verməməliyik".

**Millət vəkili Rusiya XİN tərəfindən "ekspert və cəmiyyət xətti ilə təmaslar", "parlamentarilərin dialoqu" ifadələrinə də münasibət bildirib:** "Ekspert rəyi dedikdə, daha çox konkret mövzu ilə məşğul olan xüsusi qurumların fəaliyyətindən söhbət gedir. Digər tərəfdən, cəmiyyətlərin əlaqəsi, parlamentlərarası dialoqun qurulması ənənəvi və qəbul olunan istiqamətlərdir. Məncə, bütün bu məsələlər işin irəliləməsi üçün faydalıdır. Amma görüşləri təşkil edən ölkələr buna nə dərəcədə maraqlıdır, bu, bir az sual doğuran məsələdir. O baxımdan rahatlıqla nəticə gözləməyimiz bizi yanlış istiqamətə apara bilər".

**İsmayıl Qocayev**

# Araikin "bir həftəlik" şantajının vaxtı bitdi

## Bundan sonrakı prosesin inkişafı erməni əhalisinin seçimindən və nə qədər dözə biləcəyindən asılı olacaq



**Azərbaycanın Qarabağ bölgəsinin rus sülhməramlıların müvəqqəti nəzarətində olan Xankəndi şəhərində fəaliyyət göstərməyə çalışan separatçı törtöküntüsünün başçısı Araik Arutyunyanın "daha sərt mübarizəyə keçidinin" mahiyyəti bəlli olub. Arutyunyanın 17 iyulda elan etdiyi bir həftəlik "oturaq aksiyası" ötən gün başa çatıb və o, "elan etdiyi sərt mübarizə üsullarına" keçib.**

"Sərt mübarizə" isə bu gün saat 20:00-da Xankəndinin İntibah və İrəvanın Azadlıq meydanında "eyni vaxtda" etiraz aksiyaları keçirməkdir. Xankəndidəki mitinqə separatçı-terrorçu dəstənin "dövlət naziri" Qurgen Nersisyan rəhbərlik edəcək.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Araikin "bir həftəlik" şantajının vaxtı bitdi və separatçıların başçısı növbəti müraciətini yaydı:** "Araik "öz müqəddəratını təyin etmə hüququndan" imtina etməyəcəklərini bildirib. O cümlədən, rəsmi Bakının Ağdam yolu vasitəsilə təminatın həyata keçirilməsi təklifindən imtina edib. Beləliklə, separatçılar öz mövcudluqlarını qorumaq naminə erməni əhalisini girov olaraq saxlamağa davam edəcəklər. Azərbaycan Prezidenti İlham Əliyev Qarabağın erməni sakinlərinə onları girov götürən xuntadan qurtulmaq çağırışı edib. Dövlət başçısı "gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq" sözləri ilə Bakının mövqeyində son nöqtəni qoyub. Separatçıların vəziyyəti dəyişmək ümidi ilə təxribata əl atacaqları heç vaxt istisna deyil. Lakin bundan sonrakı prosesin inkişafı erməni əhalisinin seçimindən və nə qədər dözə biləcəyindən də asılı olacaq".

**İsmayıl**





# "Danışan əllər" yardım əli gözləyir

## "Təxminən 2 ilə yaxındır ki, danışıqlar aparırıq, "baxarıq" deyirlər, biz də gözləyirik"





"Mədəniyyət Nazirliyinin bu muzeyin paytaxtda da yaradılmasına köməklik göstərməsini istərdik"

**Gənc heykəltəraşlar, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yetirmələri Namiq Hüseynov və Kənan Əliyev "Danışan əllər" ilə mesajlar ötürür.**

Onların layihəsinin yaranma səbəbi 44 günlük Vətən müharibəsində birliyimizin və gücümüzün simvoluna çevrilən "Dəmir yumruq" oldu. Bütün Azərbaycan xalqı bir yumruq ətrafında birləşdi. Kənan Əliyev və Namiq Hüseynov da müasir tariximizin bu şanlı səhifəsini sənətin dilində fərqli formada təqdim etməyə çalışdılar.

"Danışan əllər" arasında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən Anar, Elçin, Çingiz Abdullayev, Nəriman Həsənzadə, Ramiz Rövşən, musiqi xadimləri Tofiq Bakıxanov, Fidan və Xuraman Qasımovalar, Fərhad Bədəlbəyli, Azər Zeynalov, Alim Qasımov, Mübariz Tağıyev, Niyaməddin Musayev, Arif Babayev, Səkinə İsmayılova, Ramiz Quliyev, kino xadimləri Oqtay Mirqasımov, Vaqif Mustafayev və başqalarının da əl izləri var.

**"Şərq"ə danışan gənc heykəltəraş Namiq Hüseynov artıq dünyada məşhur olan insanların əllərindən kolleksiya hazırlamaq istədiklərini bildirib:** "Bu yaxınlarda məşhur şahmatçılar çempionat üçün ölkəmizə gələcəklər. Onları nəzərdə tutmuşuq.

Ümumiyyətlə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, "Danışan əllər" layihəsini, təşəbbüsümüzü çox bəyənib, yüksək qiymətləndirib. Amerikanın Texas ştatında fəaliyyət göstərən belə bir muzeydə yüzə yaxın məşhur insanların əlləri var. Mədəniyyət Nazirliyinin bu muzeyin paytaxtda da yaradılmasına köməklik göstərməsini istərdik. Bakıya daha çox turist gəlir, burada muzey yaradılsa, çox yaxşı olar.

Prezidentin əllərini, eləcə də, "Dəmir yumruq" işarəsini də əbədiləşdirmək istəyərdik.





Düzü, "Baku Book Center"də şairlərin, yazıçıların əllərini əbədiləşdirmək üçün tədbir keçirmək də olar. Hazırda akademik Xoşbəxt Yusifzadənin köməkçisi vasitəsilə əlaqə yaratmağa çalışırıq. Hələ görüşə bilməmişik.

Təxminən 2 ilə yaxındır ki, danışıqlar aparırıq. "Baxarıq" deyirlər, biz də gözləyirik".

**Aygün Tahir**

# Qərb artıq reallıqlarla barışıb

## Baş nazirin manevr imkanları çox məhduddur

**Ermənistan Baş naziri Nikol Paşinyan bildirib ki, Ermənistan Qarabağ xalqının taleyini həll edə bilməz. Baş nazir vurğulayıb ki, Qarabağ xalqının hüquqları və təhlükəsizliyi Qarabağ xalqının nümayəndələrinin iştirakı ilə beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi dialoqu formatında müzakirə edilməlidir.**



"Paşinyan anlamalıdır ki, bu gün onu sağa-sola dartanlar sabah asanlıqla qurban verəcəklər"

Qarabağla bağlı "beynəlxalq mexanizm" və "Bakı-Xankəndi" arasında dialoq dəfələrlə gündəmə gətirilib. Bir sıra analitiklərin fikrincə, Paşinyanın məqsədi sülh prosesində nəyəsə nail olmaq yox, prosesi əvvəlki kimi dalana, çıxmaza dirəməkdir.

**Politoloq Tofiq Abbasov "Şərq"ə açıqlamasında deyib ki, Ermənistan problemin həllini tapmasını, sülh müqaviləsinin imzalanmasını istəmir. Analitik hesab edir ki, atılan addımlar və verilən ziddiyyətli bəyanatlar da göstərir ki, İrəvan danışıqların nəticə verməsində maraqlı deyil:** "Məncə, Nikol Paşinyan öz hayındadır. Yəni ilk növbədə Ermənistanın rifahını deyil, özünün hakimiyyətini düşünür və bəzi addımlarla hakimiyyətini möhkəmləndirməyə çalışır. Xaricdən aldığı dəstəklə həm dirəniş göstərir, həm də proseslərə yön verməyə səy göstərir. Əlbəttə, Paşinyanın öz yaxasını kənara çəkməsi, "beynəlxalq mexanizm" oyununu ortaya atması çox yanlış və özünü doğrultmayan yanaşmadır. Çünki Ermənistan bölgə dövlətidir və Azərbaycanın qonşuluğundadır. Paşinyan anlamalıdır ki, bu gün onu sağa-sola dartanlar sabah asanlıqla Baş naziri qurban verəcəklər. Ümumiyyətlə, Cənubi Qafqazda Ermənistan Qərb üçün əvəzolunmaz subyekt deyil. İrəvan bu cür addımlarla bütün etimadını itirə-itirə gedir. Regionda maraqlı olan ölkələrdən biri Fransadır. Prezident E.Makron Ermənistanın əli ilə özünə bölgədə yer etmək niyyəti güdür. Çünki dünyada nəhəng dövlətlər arasında ciddi proseslər gedir. Super güclər təsir dairələrini dəyişdirməyə çalışırlar. Paşinyan isə elə düşünür ki, Qərb üçün vazkeçilməzdir".

**T.Abbasov vurğulayıb ki, Ermənistan rəhbərliyi təhdid və riskləri düzgün dəyərləndirməyi bacarmalıdır:** "Əfsuslar ki, Paşinyan bunu anlamır. Digər dövlətlərin Ermənistana borclu olduğunu düşünür, özünü əvəzedilməz fiqur kimi görür. Elə deyil. Baş nazirin manevr imkanları çox məhduddur, sıfıra bərabərdir. Çünki qarşısında Azərbaycan var. Hətta qardaş Türkiyə də İrəvana bir aylıq vaxt verib ki, rəsmi Bakı ilə sülh imzalasın. Bu, sadə xəbərdarlıq deyil. Dəfələrlə birmənalı vurğulanıb ki, Qarabağ Azərbaycan ərazisidir və orada baş verənlər daxili işimizdir. Burada hansı "beynəlxalq mexanimzdən" söhbət gedə bilər?! Bunların hamısı vaxt udmaq üçün düşünülmüş ssenarilərdir".

**İsmayıl Qocayev**

# Paşinyan sülh sazişinə imza atacaq

## İrəvan gedişatı görür, çıxış yolunun olmadığını anlayır

**Ermənistan Baş naziri Nikol Paşinyan bildirib ki, Bakı danışıqlar masasında heç vaxt Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyini müzakirə etməkdən imtina etməyib. Həmçinin baş nazir vurğulayıb ki, Ermənistanla Azərbaycan bir-birinə etibar etmir. Onun sözlərinə görə, bu inamsızlığı aradan qaldırmaq üçün addımlar atılmalıdır. Paşinyan deyib ki, Ermənistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, lakin bu, heç də həmişə bəyan edilməyib və qeydə alınmayıb:**



"Ermənistanın iqtisadi inkişafı Azərbaycanla bağlanacaq sülh müqaviləsindən və Türkiyə ilə əlaqələrin bərpasından asılıdır. Görünən odur ki, Paşinyan avantürizmdən əl çəkməyə çalışır"

"Təəssüf hissi ilə bildirirəm ki, dünyada elə bir ölkə yoxdur ki, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasın". Paşinyan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin nümayəndələrinin bəyanatlarını oxuyub. O, Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı Rusiya Prezidenti Vladimir Putinə, ATƏT-in Minsk qrupunun keçmiş fransalı həmsədri Stefan Viskontiyə və ABŞ Dövlət Departamentinin insan hüquqlarına dair illik hesabatından sitatlara istinad edib: "Separatçılar Ermənistanın köməyi ilə Dağlıq Qarabağın böyük hissəsini və Azərbaycanın daha 7 rayonunu nəzarətdə saxlamaqda davam ediblər". Ermənistan Baş naziri hesab edir ki, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesində Rusiya tərəfinin fəallığı obyektiv səbəblərdən azalıb. O, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevin son səfəri zamanı yeni təkliflərlə çıxış etmədiyini bildirib. Bununla belə, Paşinyan danışıqların lazım olduğuna diqqət çəkib. Eyni zamanda o, Avropa və ABŞ-nin bu məsələdə fəal olduqlarını əlavə edib. Paşinyan onların prosesə verdikləri töhfələri yüksək qiymətləndirib. Qeyd edək ki, Nikol Paşinyan ötən gün Fransanın "Le Monde" nəşrinə açıqlamasında başqa cür danışmışdı, amma mətbuat konfransında nisbətən fərqli çıxışlar edib. Görünür, xarici auditoriyaya bir cür, daxilə başqa formada danışır.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə açıqlamasında bildirib ki, Nikol Paşinyan hökuməti Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının davam etməsinin və yekunda müqavilə imzalanmasının tərəfdarıdır.** Siyasi şərhçinin sözlərinə görə, Paşinyan və onun yaxın ətrafı, həmçinin Ermənistanda olan ağıllı adamlar, sağlam düşüncəli insanlar fərqindədirlər ki, Qarabağ Azərbaycan ərazisidir. Qarabağda yaşayan ermənilər isə Azərbaycan vətəndaşlarıdır: "İstənilən halda Qarabağda həyatını davam etdirmək istəyən ermənilər Azərbaycanın ərazi bütövlüyünü tanımalı, vətəndaşlığı qəbul etməli və ölkəmizin qanunları ilə davranmalıdırlar. Bunun heç bir alternativi yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək və nəzarəti tam həyata keçirməkdə maraqlıdır. İrəvan da gedişatı görür, çıxış yolunun olmadığını anlayır. Ermənistan ya sülh müqaviləsinə imza ataraq inkişaf yoluna qədəm qoymalı, dünyaya inteqrasiya etməlidir. Ya da avantürist əməllərə davam etməklə dövləti və erməni toplumunu məhvə sürükləməlidir. Ermənistanın iqtisadi inkişafı Azərbaycanla bağlanacaq sülh müqaviləsindən və Türkiyə ilə əlaqələrin bərpasından asılıdır. Görünən odur ki, Paşinyan avantürizmdən əl çəkməyə çalışır. Müəyyən mənada istəyir ki, sülh əldə olunsun. Baş nazir Azərbaycanın bölgədəki rolunu, nüfuzunu, Qərb-Şərq arasında tranzit mövqeyini dərk edir".

*S.Əsədli vurğulayıb ki, Ermənistanın daxilində olan revanşist qüvvələr, radikallar, uydurma erməni tarixinə inanaraq onunla hərəkət edənlər reallıqları qəbul etmək istəmirlər:* "Paşinyan məhz bu səbəbdən ara-sıra, xüsusən daxili auditoriyaya yönəlik çıxışlarından nisbətən sülhə zidd açıqlamalar vermək məcburiyyətində qalır. Ermənistanda avantüra ilə yaşayanların, revanşistlərin sayı kifayət qədər çoxdur. Sarkisyan-Koçaryan cütlüyünə, o cümlədən "Daşnaksütyun"a aldanmış erməniləri mövcud həqiqətlərə inandırmaq çətindir və vaxt tələb edir. Əslində isə İrəvan hökuməti çox gözəl bilir ki, növbəti müharibə üçün Ermənistanın siyasi, iqtisadi və hərbi gücü yoxdur. Azərbaycan Ordusu istənilən vaxt Qarabağda antiterror əməliyyatlarına başlaya bilər. O baxımdan hesab edirəm ki, sülh müqaviləsi gec-tez bağlanacaq və Paşinyan bu sənədə imza atacaq. Prosesin uzanması isə birbaşa Ermənistanın öz ziyanınadır".

**İsmayıl Qocayev**

# "Kremlə bəhanə yaradan bütün kanallar bloklanmalıdır"

## Artıq Rusiya sülhməramlılarının regiondan çıxarılması üçün Azərbaycan aktiv fəaliyyətə başlamalıdır

**Qarabağ separatçılarının düçar olduğu acınacaqlı durum ortaya çıxıb.**

**Bu barədə sosial şəbəkənin erməni seqmentində məlumat verilib. Bildirilib ki, separatçıların yanacaq ehtiyatları tükənib. Bu səbəblə iyulun 25-dən etibarən ictimai nəqliyyat fəaliyyətini tam şəkildə dayandıracaq.**




*Qarabağdakı ermənilərin şou düzəltməsinin ilk belə hal olmadığını deyən siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, onlar beynəlxalq aləmin diqqətini özlərinin xəyal dünyasında tərtib etdiyi "humanitar böhran" vəziyyətinə çəkmək istəyirlər:* "Qarabağda böhran yoxdur və Azərbaycanın addımlarının sadə bir açıqlaması var. Azərbaycan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində suverenliyini bərpa etmək istəyir. Bunu edərkən ortada hansı mənzərə çıxırsa, onun günahını Azərbaycanda deyil, vaxtı ilə mövcud olmuş işğalçılıqda, separatçılıqda axtarmaq lazımdır. Çünki Azərbaycan Qarabağ ermənilərinin hüququnu Konstitusiyadan irəli gələn prosesdurların içərisində görür və bu, o deməkdir ki, həmin məsələ Azərbaycanın daxili işidir. Bu, o mənaya gəlir ki, Azərbaycan mərhələlərdən birini də adlayıb. Yəni artıq Ermənistan Qarabağı Azərbaycan kimi tanıyır və 10 Noyabr bəyanatının Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirilməsi ilə bağlı müddəası üzrə tənzimləyici xüsusiyyətini itirir".

**Analitikin sözlərinə görə, separatçılarla Ermənistan Rusiyanın son zamanlar Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı dəxlisiz çağırışlarından ruhlana bilərlər, amma bunun artıq faydası yoxdur:** "Birincisi, ona görə ki, Prezident İlham Əliyev dediklərini edən və oyunçuları həmin nəticələrə razı salan biridir. İkincisi, Azərbaycan bir neçə dəfə antiterror əməliyyatları keçirib, bunun özü artıq postmünaqişə dövründə güc tətbiqinə dair presedentdir. Belə olan halda, tanınmamış, marginal qrupdan ibarət ünsürlər əhəmiyyətini tamamilə itirir. Hesab edirəm ki, hazırda Rusiya sülhməramlılarının regiondan çıxarılması üçün Azərbaycan aktiv fəaliyyət aparmalı və Moskvanın Qarabağda hərbi iştirakı üçün Kremlə bəhanə yaradan bütün kanalları bloklamalıdır".

**Nihat Müzəffər**

# Əhalinin 60 faizindən çoxu kirayədə qalır

## Əziz Əlibəyli Fransadan danışır

**"Fransanın İl-de-Frans əyalətində, Paris ətrafındakı Nanter qəsəbəsində yol polisinin əmrinə tabe olmayan 17 yaşlı qaradərili yeniyetmənin öldürülməsindən sonra ölkədə etirazlar baş qaldırdı. Etirazçılar ötən əsrin ikinci yarısından sonra Fransaya köçən afrikalıların törəmələridir.**



Sistemə qarşı ümumi nifrət ruhuna böyüyürlər. Bu, Fransa müstəmləkəsi olmaq və qisasçılıq prizmasından böyük əhəmiyyət daşıyır. Lakin həlledici güc deyil. Çünki iki forma etiraz var: müxtəlif təşkilatların gücü ilə ortaya çıxan mitinqlər, biri də qaradərililərin qarşıdurması. Etirazlar təxminən 6 min nəfərin həbsi ilə yekunlaşdı. Bir neçə nəfərin xüsusi qəddarlıqla öldürülməsilə müşayiət olundu".

**Bunu Fransada səfərdə olan beynəlxalq məsələlər üzrə şərhçi Əziz Əlibəyli "Şərq"ə açıqlamasında deyib. O bildirib ki, Fransa hakimiyyəti onların sosial tərkibini, gücünü bildiyinə görə sıradan çıxara bildi:** "Geriyə Fransaya güclü miqrant axını qaldı. Xüsusilə ərəb əsilli, Afrika əsilli qaradərililərin rasizm üzərindən Fransada güclənən millətçilik duyğusu var. İstər-istəməz qarşıdurma ilə nəticələnir. Ənənəvi qaydada onların düşdüyü durumun səbəbkarı kimi Fransa göstərilir. İndiki məqamda etirazların Fransız xalqı və sarı jiletlilər üzərindən alovlanması gələcəkdə mümkün ola biləcək hal kimi görünür. Çünki inflyasiya var.

Söz yox ki, əhalinin maddi səviyyəsi çox yüksəkdir, aylıq gəliri 6 min auro olan toplumdan söhbət gedir. Əhalinin 60 faizindən çoxu kirayədə qalır. Artan kirayə xərcləri, inflyasiya kəndlilərin işini zorlaşdırır.

Son aksiyalar ciddi dağıntılarla yadda qaldı, mərkəzi küçələr dağıdıldı, ticarət mərkəzləri qarət edildi, müxtəlif şəxslərin maşınları yandırıldı, mülklərinə ciddi ziyan dəydi. Dövlət bunu öz büdcəsindən qarşılamağa məcburdur. Həll yolu kimi sadə əhalinin vergilərini artırmaq yoluna əl atdılar. Bu isə gələcəkdə yeni narazılıq səbəbi kimi qalmaqdadır".

**Aygün Tahir**

# Zəngəzur dəhlizinin açılması prinsipial xəttimizdir

## Prezident Çinin böyük auditoriyasında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tam mənzərəsini yaratdı



**Prezident İlham Əliyev iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibə verib. Dövlət başçısının müsahibəsi iyulun 22-də "China Global Television Network" televiziya kanalında yayımlanıb. Ölkə başçısı Çin media qurumuna geniş müsahibəsində bir çox məsələdən danışıb.**

Prezident İlham Əliyev müsahibəsində Ulu Öndərin Çin-Azərbaycan dostluğunun təməlini qoymasından, 1990-cı il hadisələrindən, dövlətimizin inkişaf yolundan, həmçinin Azərbaycanın coğrafi üstünlüklərindən, ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşməsindən, "Bir kəmər, bir yol" layihəsindən ətraflı bəhs edib. Dövlət başçısı Azərbaycan və Ermənistan arasında sülh danışıqlarından, görüşlərdən və bugünədək əldə olunmuş nəticələrdən də söz açıb. Prezident vurğulayıb ki, Ermənistan tərəfi Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometr ərazidə tanıdı: "Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır". Ölkə başçısı bəyan edib ki, bundan sonra razılaşma əldə oluna bilər: "Düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq, onu imzalaya bilərik. Bu, həqiqətən, mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar".

Prezident Qarabağda yaşayan ermənilərdən də danışıb: "Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman heç hansı problemimiz olmayıb".

**Millət vəkili, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı "Şərq"ə deyib ki, iyulun 22-də Prezident İlham Əliyevin Çinin "China Global Television Network" nüfuzlu telekanalında yayımlanan müsahibəsi tamaşaçılarda böyük maraq doğurub. Deputat diqqətə çatdırıb ki, müxbirin bəşəriyyətin nadir tarixi şəxsiyyətlərindən olan Heydər Əliyevlə bağlı verdiyi suallara dövlət başçısı tutarlı və təkzibolunmaz arqumentlərlə aydınlıq gətirib. Milyardlıq Çin auditoriyasına Ulu Öndərin dolğun siyasi portretini uğurla təqdim edib:** "Müsahibədə istər sovet hakimiyyəti, istərsə də müstəqillik qazandığımız illərdə Heydər Əliyevin yüksək təşkilatçılıq istedadı və qibtə olunacaq intellekt sahibi kimi səciyyələndirilməsi olduqca cəlbedici idi. Xüsusilə, sovet qoşunlarının Bakıda 1990-cı ilin 20 yanvarında törətdiyi qətliama qarşı böyük rezonans doğuran cəsarətli bəyanatı, müstəqilliyimizin ilk illərində Azərbaycanın düşdüyü ağır və fəlakətli durumdan çıxarılmasında və müasir Azərbaycan dövlətçiliyinin yaranmasında oynadığı müstəsna rol Ulu Öndərimiz haqqında həqiqətləri çoxmilyonlu Çin tamaşaçılarında ciddi maraq yaradacağı şübhə doğurmur. Müsahibədə Azərbaycan-Çin münasibətlərinin durmadan inkişaf etməsi, Azərbaycanın Qərb-Şərq və Şimal-Cənub nəqliyyat dəhlizində tutduğu önəmli mövqe, nəhəng "Bir kəmər, bir yol" layihəsində ölkəmizin orta dəhliz şəbəkəsində oynadığı əhəmiyyətli rol və bu baxımdan Zəngəzur dəhlizinin açılmasında nümayiş etdirdiyi prinsipial xətt ölkə rəhbəri tərəfindən olduqca aydın və inamlı şəkildə şərh olundu".

*Parlament üzvü qeyd edib ki, Çin üçün olduqca vacib əhəmiyyət kəsb edən "Bir kəmər, bir yol" layihəsində ölkə prezidentinin qətiyyətli iradəsinin nümayiş etdirilməsi Azərbaycan-Çin münasibətlərinin möhkəmləndirilməsi şərtləndirən mühüm amillərdən biridir:* "Dövlət başçısı bütün platformalarda olduğu kimi, Çinin nəhəng telekanalının yaratdığı imkandan da yararlanaraq böyük auditoriyada Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tam mənzərəsini yaratdı. Qərb ölkələrində məskunlaşan erməni diasporunun maliyyəsi ilə ələ alınan siyasətçilərin, dövlət xadimlərinin, mətbuatın, QHT və parlamentarilərin Azərbaycana qarşı vahid cəbhədə birləşərək Azərbaycanfobiya yaratmalarının oynadığı məkrli rolu cəsarətlə tamaşaçılara təqdim etdi. Şübhəsiz, ölkə Prezidenti cənab İlham Əliyevin "China Global Television Network" televiziya kanalında yayımlanan müsahibəsi geniş erməni informasiya şəbəkələrinin ölkəmiz haqqında böhtan və qərəzli uydurmalarına vurulan ağır zərbə kimi ciddi əhəmiyyət kəsb etməkdədir".

**İsmayıl**




# Azərbaycan mediasında FETÖ-nün qalıqları istisna olunmur

## Müvafiq dövlət qurumları səslənən iddiaları araşdırmalı və lazımi tədbirlər görməlidir

**"FETÖ-nün hələ ifşa olunmadığı dövrdə Azərbaycanda fəaliyyəti müxtəlif sahələri əhatə edirdi".**

**Bu sözləri "Şərq"ə açıqlamasında "Türküstan" qəzeti və saytının baş redaktoru Aqil Camal deyib.**

**O bildirib ki, bu fəaliyyət Azərbaycanın yaradıcı təşkilatları ilə yanaşı, dövlət qurumları və medianı da əhatə edirdi".**

"Onlar Türkiyədə tədbir təşkil edərkən Azərbaycanın media nümayəndələrini də dəvət edirdilər. Həmçinin ölkəmizdə müəyyən ziyafətlər və tədbirlər təşkil olunurdu. Yəni çoxşaxəli fəaliyyətlər mövcud idi. Əslində o zamanlar Azərbaycan media mənsubları nəyin baş verdiyinin fərqində deyildilər. Onlar düşünürdülər ki, Türkiyədən olan qardaşlarımızdırlar və elan etdikləri kimi humanitar fəaliyyətlərlə məşğul olurlar. Amma 15 iyul qiyamından sonra həmin təşkilatın məqsədi önə çıxdı. Yəni göründü ki, onların məqsədi Türkiyə və türk cümhuriyyətlərində insanları təşkilata cəlb edərək çevriliş etməkdir. Yalnız bundan sonra Azərbaycanda FETÖ-nün tədbirlərində iştirak edən media nümayəndələri onlarla əlaqələri kəsdilər".

**Baş yazarın sözlərinə görə, hazırda onların qurduqları şəbəkə ilə əlaqə quran leqal media orqanları istisna təşkil edir:** "Çünki Azərbaycan mediası milli, dövlətçi və oyanıqdır. Lakin zaman-zaman kimlərinsə adının FETÖ ilə hallandığının şahidi oluruq. Xüsusən də daha çox şərait yaradılmış media orqanlarının idarəçiliyində olan şəxslərin adı daha çox çəkilir. Hesab edirəm ki, sosial şəbəkələrdə və mediada üzə çıxan bu istisnalarla bağlı məsələlər daim diqqətdə saxlanılmalı və araşdırılmalıdır. Çünki FETÖ yalnız Azərbaycan və Türkiyə ilə məhdudlaşan bir təşkilat deyil. Bu gün onların Azərbaycan və Türkiyədən qaçan fəalları var ki, dünyada fəaliyyət göstərir. Ona görə də müvafiq dövlət qurumları səslənən iddiaları araşdırmalı və lazımi tədbirlər görməlidir".

*Qeyd edək ki, bir neçə gün öncə Azərbaycanda FETÖ-ya qarşı əməliyyat keçirilib, dörd nəfər həbs edilib.*

*"Report" "Yeni Şafak"a istinadən xəbər verir ki, əməliyyat nəticəsində FETÖ-nün Azərbaycandakı keçmiş rəhbərlərindən olan Döyrüş Cəfərov, təşkilatın maliyyə işlərinə cavabdeh olan Gümrah Əbdürəhmanov, "Yurd" adlanan mərkəzin direktoru Ruslan Əliyev və təşkilatı işlərə cavabdeh olan Anar Əliyev saxlanılıb. FETÖ üzvləri barəsində məhkəmə tərəfindən həbs-qətimkan tədbiri həyata keçirilib.*

*Döyrüş Cəfərov, Gümrah Əbdürəhmanov və Anar Əliyevin FETÖ-nün Azərbaycandakı təhsil və təlim mərkəzlərində uzun müddətdir təşkilatın təbliğatını apardıqları və gənclərin təşkilata üzv olması istiqamətində addımlar atdıqları müəyyən edilib.*

*FETÖ-nün idarələrində, mətbəələrində, təlim mərkəzlərində, yataqxana mərkəzində və saxlanılan şəxslərin ünvanlarında aparılan axtarışlar zamanı qurumun maliyyə hesabatları, fəaliyyət planlarını əks etdirən sənədlər, FETÖ ideyalarını yayan radikal dini sənədlər, kompüterlər, elektron yaddaş cihazları, bank kartları, külli miqdarda saxta pul və odlu silahlar ələ keçirilib.*

*Başlanmış cinayət işi əsasında bildirilib ki, hərəkatın digər üzvlərinin də müəyyən edilərək tutulması istiqamətində istintaq və əməliyyat tədbirləri davam etdirilir.*

**Nihat Müzəffər**



# Kremlin istəyi aydındır

## Rusiya Ukrayna müharibəsi fonunda BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında ancaq Çinin dəstəyinə ümid edir

**Rusiya xarici işlər naziri Sergey Lavrov son açıqlamalarının birində deyib ki, BMT Təhlükəsizlik Şurasında islahatlara ehtiyac var. Lavrov Rusiyanın BMT Təhlükəsizlik Şurası üzvlərinin sayının artırılmasına tərəfdar olduğunu bildirib.**

Rusiyanın baş diplomatı Moskvanın Asiya, Afrika və Latın Amerikası ölkələrinin hesabına Təhlükəsizlik Şurası üzvlərinin sayının artırılmasını dəstəklədiyini də vurğulayıb. S.Lavrov Təhlükəsizlik Şurasının 15 üzvündən 6-sının Avropaya məxsus olmasını ədalətsizlik kimi qiymətləndirib. Xatırladaq ki, BMT baş katibi Antonio Quterriş də ötən ilin sonunda BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılması ilə bağlı imkanların öyrənildiyini bildirmişdi.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Şərq"ə deyib ki, Kremlin istəyi aydındır. Onun sözlərinə görə, Rusiya Ukrayna müharibəsi fonunda BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında ancaq Çinin dəstəyinə ümid edir:** "Digər üzvlər - ABŞ, Fransa və Böyük Britaniya isə Kremlə qarşı sərt mövqedən çıxış edirlər. Moskva Hindistan və Braziliyanın Təhlükəsizlik Şurasının üzvlüyünə dəstək verir. Halbuki Türkiyə də Təhlükəsizlik Şurasının üzvlüyünə iddialıdır. Moskva Ankara ilə tərəfdaşlıq münasibətlərinə malik olsa da, Rusiyanın Türkiyənin Təhlükəsizlik Şurasının üzvlüyünə dəstəyi barədə məlumat yoxdur. Təhlükəsizlik Şurasının üzvlüyünə böyük iqtisadi potensialları olan Almaniya və Yaponiya da iddialıdır. Ancaq Kreml bu iki dövlətin Təhlükəsizlik Şurasının daimi üzvü olmasına imkan verməyəcək. Çünki həm Almaniya, həm də Yaponiya ABŞ-nin müttəfiqləridir və BMT-dəki müzakirələrdə və səsvermələrdə Vaşinqtonun mövqeyini dəstəkləyəcəklər".

**Ekspertin fikrincə, Pekin BMT Təhlükəsizlik Şurasının sayının artırılmasının əleyhinə deyil. Ancaq Pekin yeni üzvlərin konsensus əsasında müəyyənləşməsini istəyir:** "Bu o deməkdir ki, Pekin Moskvadan fərqli olaraq Hindistanın Təhlükəsizlik Şurasının daimi üzvlüyünə razı deyil. Halbuki Hindistan əhalinin sayına görə lider ölkədir. Pekin ancaq o ölkələrin Təhlükəsizlik Şurasına üzvlüyünü dəstəkləyəcək ki, onlar birincisi, Amerika Birləşmiş Ştatlarının müttəfiqləri deyillər, ikincisi də Çinin xarici və təhlükəsizlik siyasətini tənqid etmirlər. Məsələn, Çin Braziliyanın və ya Misirin Təhlükəsizlik Şurasının üzvlüyünə etiraz etməz. Ancaq Pekin Moskva kimi Yaponiyanın da üzvlüyünə dəstək verməyəcək. Pekin Türkiyənin də üzvlüyünə müsbət yanaşmaz. Çünki Çində uyğurların üzləşdikləri problemlər Türkiyə cəmiyyətinin narahatlığına səbəb olub".

**İsmayıl**

# Bakıda 25 Nepal vətəndaşı saxlanılıb

## Onlar ölkəmizdən tranzit kimi istifadə edərək qeyri-leqal yollarla Avropa ölkələrinə getmək istəyib

**Bakıda qanunsuz miqrasiyaya qarşı tədbirlər keçirilib, 25 Nepal vətəndaşı saxlanılıb. Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyindən məlumat verilib.**

Qeyd edilib ki, iyulun 24-də Bakı şəhərində müxtəlif ünvanlarda Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədləri olmayan əcnəbilərə qarşı polis əməkdaşları tərəfindən tədbirlər həyata keçirilib.

Daxili İşlər Nazirliyinin Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində 25 nəfər Nepal vətəndaşı qeyd edilən qanun pozuntusuna yol verdiyi üçün saxlanılıb. Onlar barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575.1.1-ci (Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşama) maddəsinə əsasən protokol tərtib olunub.

Həmin şəxslər barəsində toplanan materiallar aidiyyəti üzrə digər dövlət orqanına təhvil verilib. Araşdırmalar zamanı onların ölkəmizdən tranzit kimi istifadə edərək qeyri-leqal yollarla Avropa ölkələrinə getmək istədikləri müəyyən olunub.



**"Müvafiq araşdırmalardan sonra bu fakt öz təsdiqini tapsa, həmin şəxslər birmənalı olaraq inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılacaq"**

Qeyd edək ki, ölkəmizin bir sıra dövlətlərlə vizasız gediş-gəliş rejiminin mövcud olması nəticəsində respublikamızın ərazisindən tranzit qaydasında keçən və ya qısa müddətə gələn, üçüncü dövlətlərə getməyə cəhd edən və ya qanuni əsaslar olmadan daimi yaşayan əcnəbilərin sayı getdikcə artır. Qeyri-qanuni miqrasiyanın qarşısının alınması isə respublikamızın milli təhlükəsizliyinin təmini baxımından vacib şərtlərdən biridir. Miqrasiya nəzarəti sistemi qeyri-qanuni miqrasiya ilə bağlı mövcud vəziyyətə adekvat olmalıdır. Miqrasiya prosesləri üzrə idarəetmə beynəlxalq öhdəliklərin yerinə yetirilməsini, insan hüquq və azadlıqlarının, dövlətin milli maraqlarının və təhlükəsizliyinin etibarlı qorunmasını tələb edir.

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri, miqrasiya eksperti Azər Allahverənov isə "Şərq"ə açıqlamasında deyib ki,**

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma, yaşama və ya Respublikanın ərazisindən tranzitlə keçmə qaydalarını pozmasına görə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılması və cərimələnməsi nəzərdə tutulub:** "Daxili İşlər Nazirliyinin Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşları saxlanılan şəxslər barəsində İXM-nin sözügedən maddəsinə əsasən, protokol tərtib edib, onları aidiyyəti üzrə Dövlət Miqrasiya Xidmətinə təhvil veriblər. Daha sonra isə müvəqqəti saxlama mərkəzlərinə yerləşdirilən bu şəxslər barəsində ayrı-ayrılıqda sənədləşmə işləri aparılır. Yəni hər bir qeyri-qanuni miqrantın ölkəmizdə qeyri-leqal yaşamasının müxtəlif səbəbləri ola bilər. Ola bilsin, onun sənədləri oğurlanıb, yaxud da insan alverinin qurbanlarıdır.

Bütün bunlara aydınlıq gətirdikdən sonra onlar barəsində müvafiq addımlar atılır.

İlkin araşdırmada Nepal vətəndaşlarının ölkəmizdən tranzit kimi istifadə edərək qeyri-leqal yollarla Avropa ölkələrinə getmək istədikləri bildirilib. Müvafiq araşdırmalardan sonra bu fakt öz təsdiqini tapsa, həmin şəxslər birmənalı olaraq inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılacaq. Lakin onlar tələb olunan cəriməni ödəmədən ölkədən getsələr, onların Azərbaycana girişi məhdudlaşdırılacaq".

*A.Allahverənovun sözlərinə görə, 2023-cü ilin ilk 6 ayı üzrə Azərbaycan Respublikasının miqrasiya sahəsində, o cümlədən inzibati qanunvericiliyin tələblərinin pozulması ilə bağlı qəbul edilmiş qərarların sayı 10166 olub:* "İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmamaqla bağlı qəbul edilmiş qərarların sayı isə 5493-dür. Bunlardan 3124-ü qanunsuz miqrantların tətbiq olunan cəriməni ödəməklə ölkə ərazisini tərk etmələri barədə olub. Yerdə qalanı isə miqrantların ölkə ərazisində yaşamalarının qanuniləşdirilməsi ilə bağlıdır.

İnzibati Xətalar Məcəlləsinin və Miqrasiya Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə ölkə ərazisinə girişinin məhdudlaşdırma ilə bağlı qəbul edilmiş qərarların sayı isə 4260 olub".

*Ekspert deyib ki, Azərbaycandakı qanunsuz miqrantlar əsasən Hindistan, Pakistan, Nepal və Banqladeş vətəndaşlarıdır.*

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

# Öncə əqidə, ideya birliyi olmalıdır

## Dünya azərbaycanlılarının vahid bir amal ətrafında birləşdirilməsi vacib amildir

**Azərbaycançılıq ideyasının təbliği dövlətçilik və vətənpərvərlik kimi təməl ideyalara söykənir. Hər birimizin əsas vəzifəmiz, işimiz azərbaycançılıq ideologiyasına xidmət etməkdən ibarət olmalıdır.**

Bu məfkurənin təbliği milli həyatın ahəngdarlığı, dünya azərbaycanlılarının ümumi maraqları, ölkənin ərazi bütövlüyünün qorunmasına xidmət edərək gələcək nəsillərə də Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini sonsuz sevməyi və yaşatmağı aşılayır.

Azərbaycançılıq ideyası qloballaşma şəraitində universal dəyərlərin qorunmasını önəmli hesab edir. Bu səbəbdən də onun təbliği hər zaman aktuallıq kəsb edir.

Ötən illər ərzində bu ideologiyanın ölkə vətəndaşları arasında daha dolğun şəkildə təbliğ olunması və yayılması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılıb. Xüsusən də, 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi azərbaycançılıq ideologiyasının təbliği üçün yeni imkanlar açıb. Mütəmadi olaraq bu istiqamətdə tədbirlər və layihələr həyata keçirilir.

Lakin azərbaycançılıq sadəcə respublikanım hüdudlarında yaşayan azərbaycanlıların yox, dünyanın ən müxtəlif ölkələrində məskunlaşan azərbaycanlıların təşkilatlanması, mədəni və mənəvi əlaqələrinin inkişaf etdirilməsi üçün son dərəcə önəmli məsələlərdəndir.

Xatırladaq ki, xaricdəki soydaşlarımızın mütəşəkkil qüvvəyə çevrilməsi, onların doğma vətənlə əlaqələrinin möhkəmlənməsi dövlətin prioritet məsələlərindəndir. Dövlət hesab edir ki, güclü azərbaycanlı diasporunun ürəyi müstəqil Azərbaycanla, onun əsas ideyası olan azərbaycançılıqla döyünməlidir. Sirr deyil ki, bu taktika Azərbaycan dövləti tərəfindən diaspora təşkilatları qarşısında qoyulan ən vacib məsələlərdəndir. Belə halda diaspor təşkilatlarının dövlətin dəstəyi ilə fəaliyyət qurması daha uğurlu nəticələrə yol açır.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan xalqının milli inkişaf yolunun formalaşması azərbaycançılıq ideyasına söykənir. Bu ideyanın tətbiqi isə sırf elə azərbaycançılıq ideologiyası əsasında həyata keçirilib:** "Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görüb. Məhz Heydər Əliyevin səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazandı. Ulu Öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olub.



Xaricdəki azərbaycanlıların bir araya gəlməsində azərbaycançılıq ideologiyasının rolunu xüsusi qeyd edən F.Hüseynzadə bildirib ki, xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir: "Dünya azərbaycanlılarının vahid bir amal ətrafında birləşdirilməsi vacib amildir. Azərbaycanlıların bir araya gəlməsi üçün hər şeydən əvvəl, əqidə, ideya birliyi olmalıdır. Bu, real birliyə aparan başlıca yoldur. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyasına əsaslanaraq həmrəylik nümayiş etdirməsinə və vətənlə əlaqələrini möhkəmləndirməsinə ehtiyac var. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının vətənə bağlılığının olması, dilinin qorunması, millətinin, milli-mənəvi dəyərlərimizin yaşadığı ölkədə təbliğ etməsi vacib amildir. Məhz buna görə də Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyi tərəfindən Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının dünya azərbaycanlıları arasında təbliği mövzusunda tədbirlərin keçirilməsi" layihəsi həyata keçirilib. Layihə dünya azərbaycanlılarının milli və ideoloji birliyi üçün onlara azərbaycançılıq ideyalarının aşılanması, eyni zamanda soydaşlarımızın azərbaycançılıq ideyalarının təbliği işinə təşviq edilməsindən bəhs edir. Layihənin məqsədi azərbaycançılıq ideyasının dünya azərbaycanlıları arasında əsas birləşdirici faktora çevrilməsinə, onların milli-mənəvi birliyinin möhkəmləndirilməsinə töhfə verməkdir".

F.Hüseynzadənin sözlərinə görə, azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı hesab edən hər kəs üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir: "Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir. Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Milli düşüncə sisteminin genetik qaynağı olan azərbaycançılığın inkişaf stimulyatoru da məhz ənənədir. Ənənə uzun əsrlərin sınağından keçərək tarixi təcrübəni yığır, xalqın müdrikliyi, onun mənəvi mədəniyyəti və s. amillər bu anlayışda ifadə olunur. O, keçmişlə gələcəyi əlaqələndirir, etnokulturoloji mövcudluğu qoruyur. Bu ənənələr xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür. Azərbaycançılığın gücü, eyni zamanda fərdi maraq və meyilləri dövlət siyasəti ilə birləşdirmək, xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamaq imkanları ilə ölçülür".

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri hesab edir ki, ölkəmizin əksər ictimai-siyasi qüvvələrinin qəbul etdiyi azərbaycançılıq ideologiyasının diaspor quruculuğunda üstün cəhəti, ilk növbədə onun milli maraqlarımızın tam palitrasını əhatə etməsidir:** "Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də çox müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Hazırda lobbiçiliyin inkişafında azərbaycançılıq ideologiyasından yararlanmaq mümkündür. Hər şeydən əvvəl, xaricdəki soydaşlarımız lobbiçilik fəaliyyətinə başlamalıdır. Azərbaycançılıq ideologiyası əsasında lobbiçiliyimizi praktiki həyata keçirmək üçün azərbaycançılıq ideologiyasının doktrini hazırlanmalıdır. Hər bir fəaliyyət bu konsepsiyaya və doktrinaya uyğun olmalıdır".

Şəymən

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Elmi nəşrlərin sayına görə Azərbaycan Avropada sonuncu yerdədir

## Problem elmi nəşrlərin sayının azlığında yox, elm sahəsinin özündədir

**Hər bir ölkənin elmi inkişafı, aparılan tədqiqatlar nəticəsində əldə etdiyi uğurların elmi çəkisi onun beynəlxalq aləmdəki nüfuzuna birbaşa təsir göstərir. Qloballaşan dünyada informasiyanın özünəməxsus çəkisi, prioritetliyi günbəgün artdıqca, elmi jurnallarda işıq üzü görən məqalələr, patent və ixtiralara olan tələblər də artır. Müxtəlif elm sahələri üzrə ixtisaslaşmış elmi jurnallarda, məcmuələrdə işıq üzü görən məqalələr müəlliflərlə yanaşı, onların çalışdıqları elm və təhsil qurumlarının, eləcə də təmsil etdikləri ölkələrin elmi nüfuzunu müəyyənləşdirərək ölkəsinin inkişaf səviyyəsinə təsir göstərən amillərdən biri kimi dəyərləndirilir.**

Azərbaycanda isə bu sahədə vəziyyət bir o qədər də ürəkaçan deyil. Əhalinin hər 1 milyon nəfərinə düşən elmi nəşrlərin sayına görə Azərbaycan Avropada sonuncu yerdədir. Əhali sayı bizdən 3 dəfə az olan Ermənistan elmi nəşr sayına görə bizdən 2 dəfə yüksəkdir.

Təəssüflər olsun ki, bir çox hallarda Azərbaycan alimləri özlərinin aktual elmi məqalələrini öz jurnallarımızda dərc etdirməyə maraqlı olmurlar. Onlar nüfuzlu xarici elmi jurnal axtarırlar.

**Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, elmi jurnalların nüfuz qazanması, dərc olunan məqalələrin elmi səviyyəsindən, aktuallığından asılıdır. Jurnalın həcmi, orada dərc olunan məqalələrin çoxluğu onun nüfuz qazanmasında rol oynamır. Daha doğrusu, elmi jurnallar yalnız elmi məqaləni dərc etməklə kifayətlənmir.** Mühüm elmi problemlərin tədqiqi məqsədilə elmi tədqiqat qrupları yaradıb, elmi tədqiqat mərkəzlərinə, mütəxəssislərə araşdırma mövzuları tədqim edir. Bütün dünyada bu cürdür. Yəni elmi nəşrlər elmi mühitin formalaşmasına, elmin inkişafına dəstək verir. Azərbaycanda isə problem elmi nəşrlərin sayının azlığında yox, elm sahəsinin özündədir: "Bu sahədəki çatışmazlıqları həll etmədən elmi jurnalların sayını artırmağın heç bir mənası yoxdur.



*"Bu sahədəki çatışmazlıqları həll etmədən elmi jurnalların sayını artırmağın heç bir mənası yoxdur"*

İlk növbədə onu deyim ki, hazırda neçə-neçə bilikli, savadlı insanlar var, alimlik dərəcəsi ala bilmirlər. İllərlə Milli Elmlər Akademiyasının yollarında, institutlarında süründürülür. Nəyə görə? Axı kənardan izləyən hər bir normal vətəndaş bilir ki, savadlı insan, biliyinə güvənən alim rüşvət verməz. Buna görə də bilik səviyyəsi güclü olan çox alimlərimiz "alim" adını ala bilmir. Lakin təzada baxın ki, çoxlarının biliyinə şübhə etdiyi, açıq-aşkar hətta "primitiv savadı olan biridir" deyə münasibət bildirdiyi insan alimlik dərəcəsi ala bilir.

Hələ Sovet dövründən Elmlər Akademiyasının ayrıca bir quruma çevrilib təhsildən uzaqlaşması elm və təhsilin vəhdətini pozmuş, xüsusilə gənclərin elmi proseslərə qoşulmasına sədd çəkmişdir. Halbuki dünyanın bir çox inkişaf etmiş ölkələrində elmi-tədqiqat mərkəzləri məhz universitetlərin nəzdində fəaliyyət göstərir. Ona görə də, tələbələr çox erkən elmi yaradıcılığa cəlb olunur. Bugünkü hər bir referat özündə sabahkı geniş tədqiqatın rüşeymini daşıyır. Təəssüf ki, ölkəmizdə bu məsələ olduqca yarıtmaz vəziyyətdədir. Tələbələrin yazmalı olduğu kurs və buraxılış işlərinin, magistr dissertasiyalarının onlara satılması hamının bildiyi bir faktdır".

**K.Əsədovun sözlərinə görə, elmimiz qarşısında duran əsas problemlərdən biri dissertasiya mövzularının düzgün seçilməməsi ilə bağlıdır:** "Elmi əsərlərin yeniliyinin düzgün anlaşılmaması bir çox hallarda elmi tədqiqat əvəzinə ortaya tərtibat və tərcümə əsərlərinin çıxması və bu əsərlərin də dissertasiya kimi müdafiə edilməsi ilə sonuclanır. Bəzən dəfələrlə işlənmiş mövzular yeni ad altında təqdim olunur, dissertant elmə heç bir yenilik gətirmədən deyilən fikirləri təkrarlayır. Təəssüflər olsun ki, bu cür dissertasiyalar bəzən heç bir çətinliklə üzləşmədən uğurla "müdafiə edilir". Hətta çətinlik yaransa belə, dissertant əvvəl-axır dəyərsiz tədqiqatını işə keçirə bilir. Halbuki həqiqi istedadlar elmi işlərini müdafiə etmək üçün xeyli çətinliklərlə qarşılaşırlar. Bu yerdə məşhur bir deyim yada düşür: "İstedadlara yol verin, istedadsızlar özləri özlərinə yol açacaqlar".

Azərbaycan elmində, xüsusilə humanitar sahədə "bu mövzu Rusiyada və yaxud ərəb ölkələrində işlənib, Azərbaycanda isə işlənməyib" arqumenti hökm sürür. Nəticədə dissertasiya işi elə həmin əsərlərin tərcüməsinə çevrilir. İndi dünyanın bir çox elmi tədqiqat mərkəzi arasında mübadilə imkanlarının artdığı, hər bir kəsin asanlıqla dünyanın hər hansı bir regionunda gedən elmi prosesləri izləmək şansının olduğu bir zamanda bu problem birdəfəlik həll olunmalı, Azərbaycan üçün yenilik anlamı dünya səviyyəsində yenilik gətirmə tələbatı ilə nəticələnməlidir. Bu təlabat elmimizə xas digər bir bəlanı, plagiat azarını da cilovlayar. Bəzən nəinki xaricdə yaşayan alimlərin əsərləri oğurlanır, hətta bir institutda, bir şöbədə, bir kafedrada işləyənlərin öz həmkarlarının zəhmətinin məhsuluna yiyələnməsi də baş verir. Eləcə də dünyasını dəyişmiş alimlərin haqqı da layiqincə qorunmur. Buna görə də müəllif haqları məsələsi bir daha gündəmə gəlməli, plagiatla məşğul olanlar cəzalanmalıdır. Çünki başqa bir müəllifin adını göstərmədən onun elmi işindən, monoqrafiyasından istifadə edib özününkü kimi təqdim etmək elmi etikaya tamamilə ziddir".

Yüksək vəzifə tutan məmurların arasında bir xeylisinin elmi dərəcəsi olduğunu xatırladan təhsil eksperti deyib ki, onların arasında elmi tədqiqat işindən xəbəri olmayanların sayı kifayət qədərdir: "Bu yolla Azərbaycan elmi nüfuz qazana bilməz. İstedadlı gənclərin elmə gəlməsinə, faydalı elmi-tədqiqat işləri aparmasına maneə olub, saxta elmi işlər, elmi ad alanlar üçün dövlət büdcəsindən külli miqdarda vəsait sərf edirlər. Halbuki sərf olunan vəsait düzgün istiqamətə yönəlsə, Azərbaycan elmi dünyanın ən nüfuzlu, etibarlı tərəfdaşı ola bilər".

Şəymən

# İlk mərhələ bütün risklərin düzgün qiymətləndirilməsidir

## Sonsuzluğun uğurla aradan qaldırılması üçün vaxtında düzgün diaqnoz qoyulmalıdır



**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) sonsuzluğu qlobal sağlamlıq problemi kimi qiymətləndirir. Həmçinin bildirilib ki, sonsuzluq insanların psixi və psixososial rifahına təsir göstərərək, sıxıntı, stiqma və maddi sıxıntıya səbəb olur.**

Qeyd edək ki, dünyada hər 6 nəfərdən 1-i sonsuzluqdan əziyyət çəkir. Ölkəmiz üçün bu rəqəmin 15 faizdən yuxarı olduğu düşünülür. Mütəxəssislər sonsuzluğun yaranmasında bir çox faktorların mühüm rol oynadığını hesab edir. Amma ən çox ekoloji təsirlər- havanın, suyun, ətraf mühitin çirkliliyi və süni qidalar əsas gətirilir.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, ginekoloq Vəfa Qurbanova nazirliyin sosial media hesablarına sonsuzluqla bağlı gələn sualları cavablandırıb.

**"Şərq"in məlumatına görə, ginekoloq qadın və kişi sonsuzluğunun yaranma səbəblərinə toxunub. O deyib ki, sonsuzluğun uğurla aradan qaldırılması üçün vaxtında düzgün diaqnoz qoymaq** vacibdir: "İnsan sağlamlığı genetik, ətraf mühit faktorları, həyat tərzi vərdişləri və mikrobiotanın tərkibi arasında mürəkkəb və balanslı qarşılıqlı əlaqənin nəticəsidir. Bu mürəkkəb prosesdə iştirak edən hər komponentin rolunun dərk olunması bir çox xəstəliklərin yaranma mexanizmləri ilə yanaşı, diaqnostika, müalicə və profilaktikası üçün vacib informasiya verə bilər.

Reproduktiv nəticələrin yaxşılaşdırılması üçün qeyd edilən faktorların rolu çox aktualdır. Genetik, mikrobiom, həyat tərzi və yaşadığımız mühit arasındakı əlaqələr barədə informasiya həcmi ilbəil artır. Bu da öz növbəsində gələcəkdə sonsuzluğun diaqnostikası və müalicəsində yeni yanaşmaların tətbiqinə imkan verəcək".

*V.Qurbanovanın sözlərinə görə, reproduktiv sağlamlıq potensialına və sonsuzluğa səbəb ola biləcək amillər arasında qadın orqanizminin inkişafı ana bətnində olduğu andan başlayaraq, daha sonra uşaqlıq (7 yaşa qədər), prepubertat (yetkinlikdən əvvəlki dövr) və pubertat (yetkinlik) dövrlərinin önəmli məqamlarına xüsusi diqqət yetirilməlidir:* "Hazırda yoluxucu iltihabi proseslər, piylənmə, düzgün qidalanmama, DNT metilasiyası (DNT nukleotid ardıcıllığının özünü dəyişdirmədən DNT molekulunun modifikasiyası), oturaq həyat tərzi, zərərli vərdişlər (tütün çəkmə, spirtli içkilərin qəbulu və s.) genlərin işinə təsir edən və sonrakı nəsildə patoloji proseslərə səbəb ola biləcək əsas xarici amillərdən hesab olunur". Mütəxəssis-ekspert deyib ki, bir çox hallarda sonsuzluğun səbəbi cütlükdə genetik faktorlarla əlaqəli olur. Problemi müəyyən etmək üçün qadın və kişi genotipində kariotip pozğunluğun olub-olmaması təyin edilməlidir. Təbii ki, bu məqsədlə mütəxəssis genetik konsultasiyası və xüsusi laborator müayinə üsullarından istifadə olunmalıdır: "Sonsuzluğu uğurla aradan qaldırılması üçün mümkün qədər tez və maksimal effektiv şəkildə hamilə qalmamağa səbəb ola bilən diaqnozu qoymaq lazımdır. Burada müasir təbabətin tələblərinə uyğun olaraq və sübutlu standartlara əsaslanaraq "4P" prinsipinə uyğun addımlamaq lazımdır - xəstəliklərin inkişafını proqnozlaşdırmaq (prediksiya); xəstəliklərin baş verməsinin qarşısının alınması (prevensiya və ya profilaktika); hər bir xəstəyə fərdi yanaşma (personalizasiya); xəstənin tibbi tədbirlərdə motivasiyalı iştirakı (partisipasiya).

Təbii ki, ilk mərhələ mümkün qədər bütün risklərin düzgün qiymətləndirilməsidir. Bu sırada ailəvi və şəxsi anamnestik məlumatlar, yaş faktoru, ekstragenital xəstəliklər, reproduktiv sistemin pozğunluqları, cinsi yolla yoluxan infeksiyaların olması, uşaq və yeniyetmə yaş dövrünün xüsusiyyətləri, reproduktiv davranış, abortların sayı və bir çox digər faktorlar dəyərləndirilməlidir. Hər bir cütlük üçün müasir standartlara və mövcud imkanlara uyğun olaraq fərdi müayinə və müalicə planı tərtib edilməlidir".

**Şəymən**

# Xəstəliyin əlamətləri qəfil başlayır

## "Yay qripi"nə yoluxan xəstələrdə üşütmə, qızdırma, şiddətli baş ağrıları, zəiflik kimi əlamətlər özünü göstərir

**Qrip soyuq fəsillərin epidemiyasıdır və adətən yüksək hərarət, yaxud boğaz ağrısı ilə müşahidə olunur. Ancaq indi yay qripi kimi bilinən və məhz isti havalarda özünü göstərən qripdən danışacağıq. Qrip epidemiyasından fərqli olaraq, yay qripi soyuqdəymədən yox, istivurmadan əmələ gəlir. Çünki son vaxtlar "yay qripi"nə yoluxanların sayı artıb.**

Həkim-infeksionist Zərintac Hümbətova Xəzər TV-yə açıqlamasında bildirib ki, bu xəstəlik yay qripi kimi tanınan və məhz isti havalarda özünü göstərən qrip növüdür. Adi qripdən fərqli olaraq, yay qripi soyuqdəymədən yox, istivurmadan əmələ gələ bilir. Həkimin sözlərinə görə, bu qripin əlamətləri adi qrip xəstəliyinə bənzəsə də, bir çox xüsusiyyətinə görə ondan fərqlənir. Həmin xəstəliyin əlamətləri və yaranma səbəbləri də müxtəlifdir. Mütəxəssis bu xəstəlikdən qorunmaq üçün bəzi tövsiyələr verib. Qeyd edib ki, xüsusilə bu qripin müalicəsində antibiotik tərkibli dərman istifadəsi tövsiyə edilmir.

Qeyd edilib ki, hazırda qrip virusunun 2000-dən artıq variantı məlumdur. Növündən asılı olmayaraq qrip ağır forma aldıqda xəstəni evdə saxlamaq onun vəziyyətinin daha da pisləşməsinə səbəb ola bilər. Xəstə qızdırmalı dövründə yataq rejimində qalmalı, vitaminlə zənginləşdirilmiş məhsullar onun əsas qidası olmalıdır.



**İnfeksionist Könül Ağayeva isə "Şərq"ə açıqlamasında deyib ki, günəş şüaları altında uzun müddət qalmaqdan və ya istivurmadan qripəbənzər əlamətlər müşahidə olunur. Buna el arasında yay qripi və ya gün qripi də deyirlər:** "Bu əlamətlər qrip xəstəliyinə bənzəsə də, ondan fərqlənir. Yay qripi ilə günəşə qarşı allergiyanı qarışdırmamaq lazımdır. Günəş allergiyası zamanı da yay qripinə bənzər əlamətlər müşahidə olunur. Lakin ondan fərqli olaraq günəş allergiyası zamanı dəridə müəyyən qızartılar və səpkilər də meydana gəlir.

"Yay qripi"nə yoluxan xəstələrdə üşütmə, qızdırma, şiddətli baş ağrıları, zəiflik kimi əlamətlər özünü göstərir.

Xəstəliyin əlamətləri qəfil başlayır və xəstələrdə bir sıra patoloji simptomların əmələ gəlməsinə səbəb olur. Ağrılar ən çox göz almalarında, qaşüstü nahiyələrdə, gözü hərəkət etdirəndə çoxalır. Xəstəliyə əsasən isti havalarda rast gəlinir və epidemik xarakter daşıyır. Xəstəlik qəfil qızdırma ilə başlayır. Xəstələrdə leykopeniya, dispepsiya əlamətləri, qəbizlik əlamətləri də müşayiət edilir. Diaqnoz xəstəliyin xarakterik əlamətlərinə əsasən qoyulur. Müalicə zamanı xəstəyə yataq rejimi və simptomlar əleyhinə dərman maddələri təyin edilir".

*Həkim yay qripindən qorunmaq üçün müəyyən məqamlara diqqət etməyi və günün qızmar saatlarında günəş altında çox qalmamağı tövsiyə edib:* "Otaqda kondisionerin temperaturu 22-23 dərəcə olmalıdır. Anidən istidən soyuğa, soyuqdan-istiyə keçməməyə çalışın. Yatarkən kondisionerdən istifadə edilməməli, əgər istifadə olunarsa da, şəxsin birbaşa üzərinə vurulmayacaq formada tənzimlənməlidir. Maye itkisinin artdığı isti havalarda ən az 2,5 litr su içilməlidir. Hovuz və ya dənizə girdikdən sonra mütləq duş qəbul olunmalıdır. Tərli paltarda qalmaq olmaz. Bir də isti havalarda ağır və yağlı yeməklərin əvəzinə yüngül qidalar istehlak edilməlidir".

**Şəymən**

# Nəhayət, Nazirlər Kabineti müzakirələrə son qoydu

## Bundan sonra avtomobillərin parklanmasından əldə olunan gəlirlər ayrı-ayrı şəxslərin cibinə deyil, dövlət büdcəsinə gedəcək



**Nazirlər Kabinetinin 25 iyun 2023-cü il tarixli qərarı ilə təsdiqlənən "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği" qüvvəyə minir.**

Qərara əsasən, ödənişli parklanma yerlərində nəqliyyat vasitələrinin 15 dəqiqəyədək parklanması üçün ödəniş tələb olunmayacaq.

Nəqliyyat vasitəsi 15 dəqiqədən artıq parklandıqda ödəniş tam məbləğdə hesablanacaq. Nəqliyyat vasitələrinin parklanması üçün saat 22:00-dan saat 07:00-dək, eləcə də həftənin bazar günləri ödəniş tələb olunmayacaq. Eyni zamanda fərdi parklanma talonu verilmiş şəxslər nəqliyyat vasitələrini yalnız talonda göstərilən parklanma ərazisində müəyyən olunmuş yerlərdə ödənişsiz əsaslarla saxlayacaqlar.

Qərara əsasən, nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği zonalar üzrə müəyyənləşib. Beləliklə, parklanmaya görə ödəniş tələb olunacaq Bakı, Sumqayıt və Gəncə zonalara bölünəcək.

**Hüquqşünas Ərşad Hüseynov isə "Şərq"ə açıqlamasında deyib ki, avtomobillərin parklanmasından yığılan vəsaitlərin kimlər tərəfindən idarə olunması və hara getməsi cəmiyyət tərəfindən narazılıq doğuran bir məsələ idi:** "Nəhayət, Nazirlər Kabineti bu barədə yekun qərar qəbul edib. Bundan sonra həmin məbləğ büdcəyə gedəcək və yəqin ki, bu məbləğ avtomobil nəqliyyatı infrastrukturunun yaxşılaşdırılması istiqamətində xərclənə bilər.

Hökumətin yeni qərarı ilə Bakı, Sumqayıt və Gəncədə zonalara uyğun parklanmaya görə müəyyən olunan ödənişlərin tətbiqinə başlanır.

Fikrimcə, avtomobillərin parklanmasını və buna görə vəsaitlərin yığılmasını həm beynəlxalq təcrübə, həm də hazırda dövriyyədə olan ödəniş sistemləri nəzərə alınmaqla sivil qaydada təşkil etmək lazımdır. Burada əsas prinsiplər ondan ibarət olmalıdır ki, şəffaflıq təmin edilsin, ödənişlər ayrı-ayrı şəxslərin cibinə deyil, dövlət büdcəsinə və yaxud da büdcəyə bağlı olan digər hesablara getsin. Eyni zamanda insanlardan əlavə nəsə tələb olunmasın, müxtəlif xoşagəlməz, neqativ hallar baş verməsin. Bunun üçün də müasir ödəniş vasitələrindən, ödəniş sistemlərindən istifadə daha düzgün olar. Onlardan da ən yaxşısı nağdsız ödəniş sistemidir. Burada əsas üstünlük ondan ibarətdir ki, parklanma haqları nağdsız qaydada ödəniləcək. Kimlərinsə əlavə pul alması və yaxud onu müəyyən olunmuş hesablara köçürməməsi kimi hallar olmayacaq. Üstəlik, park nəzarətçilərinin pul məsələlərində iştirakı sıfıra bərabər olacaq. Çünki onlar pulların qəbulu və mədaxil proseslərində iştirak etməyəcəklər. Park nəzarətçiləri yalnız avtomobil sahiblərinə ödəniş alətlərindən, ödəniş vasitələrindən istifadə ilə bağlı müəyyən məsləhət verə, onlara yardım edə biləcəklər".

**Şəymən**

# "Üzr istəsəm, gərək şou-biznesə "əlvida" deyim"

## Fatimə Ali Məhkəməyə müraciət edəcək



**Xəbər verdiyimiz kimi, rəqqasə Fatimə Fətəliyeva və şair Nazilə Səfərli arasındakı məhkəmə prosesi davam edir.**

Ötən gün Fatimənin şikayəti üzrə işə Apellyasiya Məhkəməsində baxılıb. Nazilənin açıqlamasına görə, sənətçi bu məhkəməni də uduzub.

Fatimə məsələ ilə bağlı "Axşam.az"a açıqlama verib. O bildirib ki, hələ məhkəmə sonlanmayıb. Rəqqasə qeyd edib ki, Ali Məhkəməyə müraciət edəcək: "Hələ son deyil. Əlbəttə, Ali Məhkəməyə verəcəyəm. Görün, sonda kim güləcək. Mən heç vaxt üzr istəməyəcəyəm. Çünki haqlı tərəf mənəm. Bu günə kimi Fatiməni necə tanımısınız? İndiyənə kimi Fatimə tüpürdüyünü yalayıb? Heç vaxt... Mən üzr istəsəm, onda gərək şou-biznesə "əlvida" deyim".

Sənətçi hazırda hava limanında olduğunu, istirahətə yollandığını açıqlayıb.

*Qeyd edək ki, Nazilə məhkəmədə Fatimədən 50 min təzminat istəyib.*

*Xatırladaq ki, rəqqasə ilə şairə arasındakı qalmaqala Nazilənin sosial şəbəkədə yazdığı "Bir rəqqasə reklam etdiyim məkanların birinə zəng edib qışqıraraq deyib ki, bizi dəvət etmirsiniz, kobud şairəni reklama dəvət edirsiniz. Əzizim, vaxtında bizim başımızda böyüyümüz olub. Stolların üstündə göbək rəqsi etməyə icazə verməyiblər deyə, incə qala bilməmişik, kobud qalmışıq. Demək istərdim ki, ağır ol, amma ağır olsan dingildədiyin masalar qırılar. Bağışla" sözləri səbəb olub.*

*Bundan sonra Fatimə bu sözlərin ona aid olduğunu söyləyib. O, canlı yayım açaraq Nazilənin ünvanına sərt sözlər deyib.*

# Səhnəyə qayıtdığı üçün qurban kəsdilər



**Xalq artisti Afaq Bəşirqızı uzun fasilədən sonra səhnəyə qayıdıb.**

Aktrisa bir neçə gün əvvəl Azərbaycan Dövlət Akademik Musiqili Teatrında görkəmli yazıçı-dramaturq Əli Səmədlinin "Toya bir gün qalmış" komediyası ilə səhnəyə çıxıb.

Bəşirqızının səhnəyə qayıtmasına görə teatr kollektivi qurban kəsib. Bu haqda "Elgizlə izlə" verilişində aparıcı Elgiz Əkbər deyib. O, aktrisanın bağ evindən çəkiliş edərək, həmin anları nümayiş etdirib.

*Qeyd edək ki, aktrisa bir müddət əvvəl xərçəngdən əziyyət çəkdiyini və əməliyyat olunduğunu açıqlamışdı. A.Bəşirqızı buna görə uzun illər səhnədən uzaq qalıb.*

**Elan**

"Beynəlxalq Liberal Maarifçilik Mərkəzi" İctimai Birliyinə məxsus möhür itdiyi üçün etibarsız hesab olunur.

Rəqəmsal texnologiyalar və innovasiyaların inkişafı Baş İdarəsinin baş zabiti mayor Nəcəfov Nəcəf Nadir oğluna məxsus xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti, Samirə Ərəblinskaya

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1910

ŞƏRQ 26 iyul 2023-cü il № 129 (5890) (çərşənbə)




## Damda çılpaq adam

Polisin siqnal səsini eşidib qaçdı

**Türkiyənin Düzce bölgəsində bir binanın damında çılpaq uzanan və günəş vannası qəbul edən şəxs xəbər alan polis maşınının siren səsini eşidib qaçıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Cedidiye məhəlləsində 3 mərtəbəli yaşayış binasının damında çılpaq uzanıb günəş vannası qəbul edən kişini görənlər vəziyyəti polisə xəbər verib.

Hadisə yerinə gələn polis qrupunun sirenini eşidən şəxs damdan enərək geyinib və mənzilə doğru qaçıb. Polis həmin şəxsi tutmaq üçün əməliyyata başlayıb.

**Turan**

## Putin qanunu təsdiqləyib

Rusiyada cinsiyyətin dəyişdirilməsi qadağandır



**Rusiyada cinsi dəyişikliyi qadağan edən qanun təsdiqlənib. Transgender nikahları etibarsız olacaq və onlar övladlığa götürə bilməyəcəklər.**

"Şərq" rus mediasına istinadən xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin ölkədə cinsiyyətin dəyişdirilməsini qadağan edən qanunu təsdiqləyib.

Putinin imzaladığı fərmana əsasən, cinsiyyətin dəyişdirilməsi üçün cərrahiyyə və hormon terapiyası aparılmayacaq.

Ölkədə artıq cinsini dəyişmiş şəxslərə müxtəlif məhdudiyyətlər qoyan qanuna görə, bu vətəndaşların nikahları etibarsız sayılacaq və onlar övladlığa götürə bilməyəcəklər.

Putinin 2022-ci ilin dekabrında təsdiq etdiyi başqa bir qanun da qeyri-ənənəvi cinsi əlaqəni, uşaq istismarını və Rusiyada cinsiyyət dəyişmə istəklərinə səbəb ola biləcək informasiya təbliğatını qadağan edib.

**Turan**

## Demet Özdemir DJ Sergionu sevir

Onlar ilk dəfə eyni avtomobildə görüntülənib



**Ötən aylarda Oğuzhan Koçla evliliyini bitirən Demet Özdemirin DJ Sergio ilə eşq yaşadığı iddia edilib.**

Məşhur aktrisa adı sevgi dedi-qodularına qarışan Serxionu sosial media hesabından paylaşıb. Cütlük ilk dəfə eyni avtomobildə görüntülənib.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, evlilikləri haqqında çox danışılan Demet Özdemir və Oğuzhan Koç sosial şəbəkədə sevgi dolu pozalar verərkən təəccüblü şəkildə ayrılmaq qərarına gəliblər.

Mayın 8-də məhkəmə iclasında boşanan Özdemir və Koç Adalar Ədliyyəsi Ailə Məhkəməsində keçirilən iclasa vəkilləri ilə qatılıb və qarşılıqlı olaraq heç nə tələb etməyiblər.

Ayrılıqdan sonra bir müddət Yunanıstanda tətildə olan Demet Özdemirin o zaman könlünü yunan DJ Sergioya verdiyi iddia edilir. Özdemir ad günü məclisində tanış olduğu DJ Sergionu dinləməyə getməyə başlayıb.

Demet Özdemir ötən gün adı sevgi dedi-qodularına qarışan Sergionu paylaşıb. Məşhur DJ də bu paylaşımı bəd nəzər muncuq emojisi ilə paylaşıb.

DJ Sergio və Demet Özdemir bu dəfə eyni avtomobildə görüntülənib.

**Turan**

## Gözəllik salonları bağlanır

60 min qadın işsiz qalacaq



**"Taliban" administrasiyasının Əfqanıstanda gözəllik salonlarının bağlanması üçün verdiyi müddət başa çatıb. Bu salonların bağlanması ilə on minlərlə qadının işsiz qalacağı vurğulanır.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, gözəllik salonlarına verilən vaxtın bitməsi ilə mağazalar da bağlanıb. Belə mağazaların sayının 12 minə çatdığı bildirilir. 60 mindən çox qadının işsiz olduğu təxmin edilir. 2021-ci ildə hakimiyyəti ələ keçirən "Taliban" daha əvvəl qadınların cəmiyyətdəki rolunu məhdudlaşdırmaq üçün addımlar atmışdı. Qadınlar başlarını örtməli və qapalı paltar geyinməli idilər. Əfqan qadınlarına BMT və qeyri-hökumət təşkilatlarında işləmək də qadağan edilib. Dövlət idarələrində çalışan qadınlar da ixtisara salınıb. Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Şurasının ötən həftə açıqladığı hesabata görə, Əfqanıstan qadın hüquqları ilə bağlı ən pis ölkələrdən biridir. BMT-nin məlumatına görə, "Taliban"ın hakimiyyətdə olduğu 22 ay ərzində ölkədə gender bərabərliyi daha da pisləşib.

**Turan**

## "Barbie" hər kəsi heyrətə saldı



**Dubayda Bürc Xəlifə binasının qarşısında quraşdırılan 3D "Barbie" yerindən çıxıb gəzərkən real görünüşü ilə insanları təəccübləndirib.**

Bakupost.az xəbər verir ki, həmin görüntülər sosial mediada gündəm olub.



# Sənətkarın böyrəyi İsa Bəyə köçürüldü

## 6 aydır növbədə gözləyən taksi sürücüsü həyata döndü

**Beyinə qan sızması nəticəsində dünyasını dəyişən türkiyəli səs aktyoru Mehmet Ertürkün orqanları transplantasiya gözləyənlərə ümid verir. Bursada transplantasiya üçün növbədə gözləyən taksi sürücüsünə Ertürkün böyrəyindən biri köçürülüb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Çanaqqalanın Bayramiç rayonunda məskunlaşan və əşyalarını daşıyarkən pilləkənlərdən yıxılaraq beyin qanaması keçirən səs aktyoru Mehmet Ertürk ötən həftənin cümə günü dünyasını dəyişib.

Orqanlarını tək övladı Ata Ərtürkə bağışlamaq üçün vəsiyyət edən Mehmet Ertürkdən alınan orqanlar başqalarına bağışlanıb.

30 ildir dializ aparatına qoşulan və 6 aydır növbədə gözləyən Ertürkün böyrəyi taksi sürücüsü İsa Bəyə həyat verib.

Özəl xəstəxanada 2 saata yaxın uğurlu əməliyyatdan sonra yeni böyrəyi implantasiya edilən İsa Bəy 11 yaşında yüksək təzyiqi olduğunu bildirib.

**"Təzyiqimi heç aşağı sala bilmədilər" deyən İsa Bəy sözlərinə davam edir:** "Mən nəhayət böyrəklərimi itirdim. 30 ildir bu xəstəlikdən əziyyət çəkirəm. İki ay əvvəl yenidən köçürməyə çağırdılar, amma olmadı. Keçən şənbə məni yenidən xəstəxanaya çağırdılar. Hiss etdi ki, böyrəyi mənə köçürəcəklər".



### "Uğurlu əməliyyat oldu"

Böyrək nəqli əməliyyatı keçirən həkimlərdən Op. Dr. Mahmud Esat Danışoğlu deyib: "Cümə günü axşam bizə zəng etdilər və dedilər ki, beyin ölümü olan bir xəstə var. Transplantasiya sifarişi mərkəzimizdə idi və donordan orqan almaq üçün Çanaqqalaya getdik. Qaraciyər, böyrək və buynuzlu qişa çıxarıldıqdan sonra şənbə günü 30 ildir dializ xəstəsi olan İsa Bəyə böyrək nəqli əməliyyatı etdik. Uğurlu əməliyyat oldu. Hər şey yaxşıdır. Pasiyentimiz 11 yaşından dializ müalicəsi alır. Normalda dializdə olan xəstənin ömrü qısa olur. Keçmişdə çox uğurlu müalicə olunub, sonrakı dövrdə çox yaxşı olacaq".

**Turan**



# İnsanlara keçə bilərmi?

## Türkiyədə pişiklərdə rast gəlinən FİP xəstəliyi yayılır

**Bu il Cənubi Kiprdə 300 min pişiyin ölümünə səbəb olan FİP xəstəliyinə yoluxma halları Türkiyədə də artıb. Mütəxəssislər çirklənmə sürətini azaltmaq üçün heyvanları bir yerdə saxlamamağa çağırıblar. Bəs, FİP xəstəliyi nədir, insanlara keçə bilərmi?**



"Şərq" türk mediasına istinadən xəbər verir ki, Cənubi Kiprdə son 7 ayda 300 min pişiyin ölümünə səbəb olan FİP xəstəliyi Türkiyədə də yayılmaqdadır. Mütəxəssislərin fikrincə, xəstəliyin yayılmasına daha çox ətraf mühit amilləri təsir edir.

Pişiklərin bədənində olan koronavirus mutasiyaya uğrayaraq FİP-ə çevrilir. Bu, böyük ölçüdə pişiklərin ölümünə səbəb olur.

### Əlamətləri nədir?

FİP xəstəliyi; pişiklərdə qızdırma, qarın boşluğunda su yığılması, sidik axıtma, iştahsızlıq, su içməmək kimi bəzi əlamətlərlə özünü göstərir.

### İnsanı müalicə edir?

Türkiyə Baytar Həkimlər Birliyinin prezidenti Prof. Dr. Murat Arslan, çirklənmə sürətini azaltmaq üçün heyvanların bir yerdə saxlanılmaması lazım olduğunu ifadə edərək, FİP-nin ümumi öldürücü immun xəstəliyi olduğunu vurğulayıb.

Arslan, "Ölkəmizdə heyvanların su içdiyi və birlikdə yemək yediyi nöqtələr çirklənmənin ən sıx olduğu yerlərdir", - deyə vurğulayıb.

Pişiklərdən FİP-ə səbəb olan koronavirus faktorlarının insanlara keçmədiyini bildirən Arslan sözlərinə davam edir: "Uşağın yerdəyişməsi, müxtəlif mühitlərdə fərqli heyvanlarla bir araya gəlməsi kimi səbəblərə görə, koronavirus faktorları mutasiyaya uğrayaraq xəstəliyə çevrilir".

Arslan qeyd edib ki, pişiklər mütəmadi olaraq baytar həkimə aparılmalıdır, ev və küçə heyvanları üçün yemək və su qabları müxtəlif yerlərə qoyulmalıdır.

**Turan**

## 8 yaşlı qızın qatili 48 ildən sonra tapıldı

Onun Gürcüstanda hələ də həbsdə olduğu bildirilir



**ABŞ-nin Corciya ştatında yaşayan keçmiş keşiş Devid Zandstra 1975-ci ildə Pensilvaniya ştatında xidmət edərkən 8 yaşlı qızı öldürdüyünü etiraf edib. Hadisə ilə bağlı istintaqın davam etdiyi bildirilir.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Pensilvaniya ştatının Delaver rayon prokuroru Cek Stollştaymer 83 yaşlı təqaüdçü keşiş David Zandstraya qarşı 1975-ci ildə törədilən qətlə görə "qəsdən adam öldürmə" və "birinci, ikinci və üçüncü dərəcəli adam öldürmə", "uşaq oğurluğu" və buna bənzər ittihamlarla ittiham irəli sürüb.

8 yaşlı Qretçen Harrinqtonu öldürməkdə ittiham olunan Zandstranın hadisə zamanı kiçik qızın getdiyi dini düşərgədə keşiş olduğu bildirilib.

Prokuror Stollştaymer açıqlamasında, Zandstranı tanıyan birinin məlumatından sonra onun Corciya ştatında saxlandığını və sorğu-sual edildiyini bildirib.

Zandstranın cinayətini etiraf etdiyini bildirən prokuror, müttəhimin DNT nümunələrinin cinayət yerindəki dəlillərlə müqayisə ediləcəyini qeyd edib.

Stollştaymer bu barədə məlumatı olanları, əlavə qurbanlar olarsa, araşdırma aparan qruplarla əlaqə saxlamağa çağırıb. Səlahiyyətlilər bildiriblər ki, Zandstra Harrinqtonu avtomobilinə mindirib və onu meşəlik əraziyə apararaq öldürüb. Stollştaymer isə polisə zəng edənin Harrinqtonun ən yaxın dostlarından birinin atası Zandstra olduğunu və hadisədən sonra da kiçik qızın ailəsi ilə illərdir dostluq etməyə davam etdiyini qeyd edib. Zandstranın Gürcüstanda hələ də həbsdə olduğu bildirilir. Harrinqton 1975-ci ilin avqustunda Zandstranın pastor olduğu dini düşərgəyə gedərkən yoxa çıxıb və onun cəsədi iki ay sonra tapılıb.

**Turan**

## Obamanın aşpazının meyiti tapıldı



**ABŞ-ın sabiq Prezidenti Barak Obama ailəsinin baş aşpazı Tafari Kempbelin cəsədi tapılıb.**

Hadisə ilə bağlı araşdırma aparan polislər aşpazın Martas-Vinyard adasındakı gölməçədə boğulduğunu bildiriblər.

Qırx beş yaşlı aşpaz itkin sayılırdı.

Tafarinin ailənin sevimli üzvü olduğunu vurğulayan Mişel Obama bildirib ki, ailəsində onu şən, mehriban, gülərüz insan kimi sevirdilər.

Hadisə zamanı Barak Obama evdə olmayıb.